# ZAMANSIZLIQ VƏ TALE HƏQİQƏTİ

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


- GİRİŞ
- I HİSSƏ
  - Kainat Yoxdan Yaradıldı
- II HİSSƏ
  - Maddənin Ardındakı Sirr
- III HİSSƏ
  - Zamanın Nisbiliyi və Tale Həqiqəti
- IV HİSSƏ
  - Təkamül Yalanı
- ƏDƏBİYYAT

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan

xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar,

çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin

ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə XXI əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

# GİRİŞ

Bu günə qədər, gəlmiş getmiş bütün din əleyhdarı şəxslərə və axınlara baxıldığında demək olar ki, hamısının fəlsəfi təməlində materialist düşüncənin yatdığı görülər. Bilindiyi kimi materialistlər yaradılış həqiqətini rədd edirlər. Bunun yerinə maddənin sonsuzdan bəri var olduğunu və sonsuza qədər də mütləq bir varlıq olaraq qalacağını iddia edirlər. Digər bir deyişlə maddəni ilahlaşdırırlar. Materialistlərin öz qaynaqlarında materializm belə təsvir edilir:

**Materializm dünyanın əzəli və əbədiliyini (əvvəlsiz və sonrasızlığını), Tanrı tərəfindən yaradılmış olmadığını və də zaman və məkanda sonsuzluğunu qəbul edər.[1]**

Materializmin maddəni bu dərəcə ilahlaşdırmasının səbəbi, hər nə olursa olsun bir Yaradıcının varlığını qəbul etməməkdir. Çünki maddə mütləq deyilsə bir başlanğıcı var deməkdir; bir başlanğıcı varsa da yoxdan var edilmiş, yəni yaradılmış deməkdir.

XX əsrin sonunda bütün elm dünyasının çatdığı ortaq nəticə, maddənin mütləq olmadığı, bir başlanğıcı olduğu həqiqətini təsdiqləməkdədir: Bütün kainat təxminən 15 milyard il əvvəl "sıfır" həcmdəki bir nöqtənin partlamasıyla yoxluqdan meydana gəlmiş və genişləyərək günümüzdəki şəklini almışdır. Böyük Partlama (Big Bang) adı verilən bu hadisənin doğruluğu, bir çox konkret dəlil və müşahidə ilə, eyni zamanda da nəzəri fizikaçıların hesablamalarıyla da sübut edilmişdir.

Bu gün elmin çatdığı son nöqtə, Quranın və bütün ilahi dinlərin bildirdiyi "kainatın yoxdan var edildiyi" həqiqətini təsdiqləməkdədir. Yenə bununla birlikdə müasir elm, materializmi və bunu əsas alan ideologiyaları hər sahədə yalanlamaqda, materialist görüşə sahib olanların maddəyə söykənən dünyalarını yıxmaqda, yaradılışa qarşı başlatdıqları müharibədə onları məğlub etməkdədir.

Buna baxmayaraq materialistlər, maddənin mütləq deyil, yaradılmış olduğu həqiqətini elmlə zidd düşmək bahasına da olsa qəbul edə bilməzlər. Çünki bu həqiqəti qəbul etmək Allahın varlığını qəbul etmələrini, Allaha iman

etmələri isə dini qəbul etmələrini və yaşamalarını tələb edəcək. Din isə hər şeydən əvvəl Allaha qəti bir boyun əyməyi və təslimiyyəti tələb etdiyindən, əlbəttə ki belə bir tutum, qürurlarına məğlub olmuş bu insanlara ağır gələcəkdir. Quranda, həqiqətləri gördükləri halda, qürurları üzündən həqiqətlərdən qaçanların vəziyyəti belə təsvir edilməkdədir:

**...daxilən möhkəm əmin olduqları halda, haqsız yerə və təkəbbür üzündən onları inkar etdilər. Bir gör fitnə-fəsad törədənlərin axırı necə oldu! (Nəml surəsi, 14)**

Materialistlər, maddənin yanında zamanın da mütləq olduğunu, yəni sonsuzdan gəlib sonsuza getdiyini müdafiə edirlər. Bu əyri anlayışa söykənərək də taleni (alın yazısını), axirət gününü, cənnəti və cəhənnəmi rədd etməyə çalışırlar. Halbuki bu gün müasir elm, maddənin olduğu kimi, maddənin bir törəməsi olan zamanın da maddə ilə birlikdə yoxluqdan var edildiyini və zamanın da bir başlanğıcı olduğunu isbat etmişdir.

Həmçinin, zamanın nisbi (rölatif) bir anlayış olduğu, materialistlərin əsrlərdir zənn etdikləri kimi dəyişməz və sabit olmadığı, dəyişən bir hissiyyat forması olduğu da bu əsrdə ortaya çıxmışdır. Zamanın və məkanın nisbiliyi Eynşteynin “Rölativite”(nisbilik) nəzəriyyəsiylə sübut edilmiş və bu həqiqət bu günki müasir fizikanın təməlini meydana gətirmişdir.

Nəticə olaraq, zaman və məkan mütləq olmayan, başlanğıcları olan, Allahın yoxdan var etdiyi anlayışlardır. Zamanı və məkanı yaradan Allah, əlbəttə ki, bunlara tabe deyil. Allah, zamanın hər anını zamansızlıqda təyin etmiş, təsbit etmiş və yaratmışdır. Bax materialistlərin ağıl çatdıra bilmədikləri “Tale” həqiqətinin özü də buradadır.

Bizim üçün keçmişdə yaşanmış və gələcəkdə yaşanacaq olan hadisələrin bütünü, zamana tabe olmayan, zamanı yoxdan var edən Allahın bilgisi və hakimiyyəti daxilindədir.

Quranın 1400 il əvvəl bildirdiyi və inananların könüldən inandıqları həqiqətləri bu gün müasir elm də təsdiqləməkdə və Quranın Allahın sözü olduğuna şahidlik etməkdədir. Əsrlərdir Allahın varlığını və yaradılış həqiqətini rədd edən materialist düşüncə isə, dilindən salmadığı və hər fürsətdə arxasına sığınmağa çalışdığı elm tərəfindən hər sahədə yalanlanmaqdadır.

Bu kitabda, materialistlərin qarşıya qoyduqları iddiaların heç bir elmi və məntiqi etibarlılığı olmadığını, əksinə materializmin bu günün elmi ilə tamamilə çökdürüldüyünü sizlərə dəlilləriylə göstərəcəyik. Burada izah edilən mövzular maddənin əsli, zamanın və məkanın nisbiliyi ilə əlaqədar çox əhəmiyyətli dəlillər ehtiva etməkdədir. Belə ki, bəlkə də bu günə qədər heç düşünmədiyiniz bəzi həqiqətlərlə qarşılaşacaq, maddənin özünün materializmin iddia etdiyindən və ya sizə öyrədiləndən çox daha fərqli olduğunu anlayacaqsınız.

# I HİSSƏ

# KAİNAT YOXDAN YARADILDI



Diyalektik materializmin banisi Karl Marks

Materializm, maddəni mütləq varlıq sayan, maddədən başqa heç bir şeyin varlığını qəbul etməyən düşüncə sistemidir. Tarixi köhnə Yunanısatana qədər uzanan, amma xüsusilə XIX əsrdə yayılan, ən çox da Karl Marksın dialektik materializmiylə səslənilən bu düşüncə sistemi, maddənin sonsuzdan bəri var olduğunu və sonsuza qədər də var olacağını iddia edər. Maddənin yaradılmamış olduğunu fərz etdiyinə görə də, bir Yaradıcının varlığını qəbul etməz.

Materializm az əvvəl də ifadə etdiyimiz kimi ən çox XIX əsrdə məşhur olmuşdu. Bunun başlıca səbəblərindən biri, o dövrdə, "kainatın necə ortaya çıxdığı" sualına qarşılıq olaraq ortaya qoyulan "sabit kainat" (statik kainat) modeli idi. Bu model, "kainat necə ortaya çıxdı" sualına, "kainat ortaya çıxmadı, sonsuzdan bəri vardı və sonsuza qədər də var olacaq" cavabını verməkdə idi. Kainat sabit, sabit və dəyişməz bir maddələr bütünü olaraq qəbul edilir və dolayısı ilə kainatın belə olmasının da bir Yaradıcını qəbul etməyi tələb etmədiyi deyilirdi.

Bu kainat modelinin əksinin isbat edilməsi digər bir ifadəylə bir başlanğıcı olduğunun və dəyişgənliyinin ortaya çıxması isə, əlbəttə bir Yaradıcının varlığını sübut edəcəkdi. Məşhur materialist fəlsəfəçi Georges Politzer, *Fəlsəfənin Başlanğıc Qanunları* adlı kitabında bu həqiqəti qəbul edir, ancaq "sonsuz kainat" modelinin etibarlılığına güvənərək yaradılışa qarşı çıxırdı:

**Kainat yaradılmış bir şey deyil. Əgər yaradılmış olsaydı, o təqdirdə, kainatın Tanrı tərəfindən müəyyən bir anda yaradılmış olması və kainatın yoxdan var edilmiş olması gərək idi. Yaradılışı qəbul edə bilmək üçün, hər şeydən əvvəl, kainatın var olmadığı bir anın varlığını, sonra da, heçlikdən (yoxluqdan) bir şeyin çıxmış olduğunu qəbul etmək lazımdır. Bu isə elmin qəbul edə bilməyəcəyi bir şeydir.**[2]

Ancaq müasir elm, XX əsrin ikinci dörddəbirində başlayan bir müddət nəticəsində materialistlərin "əgər elə olsa bir Yaradıcı olduğunu qəbul etmək lazım idi" şəklində dilə gətirdikləri həqiqəti, yəni kainatın bir başlanğıcı olduğu həqiqətini isbat etdi. Bu həqiqət müxtəlif mərhələlər nəticəsində ortaya çıxdı.

## Kainatın Genişlənməsi

1929-cu ildə Kaliforniya Mount Wilson Müşahidə evində, Amerikalı astronom Edwin Habl astronomiya tarixinin ən böyük kəşflərindən birini etdi. Habl, istifadə etdiyi nəhəng teleskopla səmanı araşdırarkən, ulduzların uzaqlıqlarına bağlı olaraq qırmızı rəngə doğru sürüşən bir işıq yaydıqlarını təyin etdi. Bu görüş elm dünyasında böyük əks-səda yaratdı. Çünki bilinən fizika qaydalarına görə, müşahidənin edildiyi nöqtəyə doğru hərəkət edən işıqların tezliyi bənövşəyi istiqamətə doğru, müşahidənin edildiyi nöqtədən uzaqlaşan işıqların tezliyi də qırmızı istiqamətə doğru sürüşməkdə idi. Yəni ulduzlar hər an bizdən uzaqlaşmaqda idilər.



Edwin Habl istifadə etdiyi nəhəng teleskopun yanında

Habl, çox keçmədən çox əhəmiyyətli bir şeyi daha təsbit etdi: Ulduzlar və qalaktikalar yalnız bizdən deyil, bir-birlərindən də uzaqlaşırdılar. Hər şeyin bir-birindən uzaqlaşdığı bir kainat qarşısında gəlinə biləcək tək nəticə isə, kainatın hər an **"genişləməkdə"** olduğu idi. Mövzunu daha yaxşı anlamaq üçün, kainatı şişirilən bir şarın səthi kimi düşünmək mümkündür. Şarın səthindəki nöqtələrin şar şişdikcə bir-birlərindən uzaqlaşmaları kimi, kainatdakı cisimlər də kainat genişlədikcə bir-birlərindən uzaqlaşırdılar.

Əslində bu həqiqət daha əvvəl də nəzəri olaraq kəşf edilmişdi: Albert Eynşteyn, 1915-ci ildə ortaya qoyduğu Ümumi Nisbilik (Rölativite) Nəzəriyyəsi çərçivəsində etdiyi hesablamalarla kainatın sabit ola bilməyəcəyi nəticəsinə gəlmiş idi. Öz kəşfi qarşısında son dərəcə təəccüblənən Eynşteyn bu əlverişsiz nəticəni ortadan qaldırmaq üçün tənliklərinə kosmik sabit adını verdiyi bir faktor əlavə etmişdi. Çünki o sıralar, astronomlar ona kainatın statik olduğunu

söyləyirdilər, o da nəzəriyyəsinin bu modellə ziddiyyət təşkil etməsini istəməmişdi. Ancaq sonradan özünün də, **"kariyeramın ən böyük səhvi"** etirafıyla geri götürəcəyi bu görüş, inkişaf edən elmi tapıntılar nəticəsində çürüyüb gedəcəkdi.

İlk olaraq 1922-ci ildə Rus alimi Aleksandr Friedmann, Ümumi Nisbilik nəzəriyyəsindən yola çıxaraq, kainatın dəyişən olduğunu və ən kiçik bir qarşılıqlı təsirin, genişləməsinə və ya büzüşməsinə gətirib çıxaracağını təyin etdi. Friedmann bu nəticəyə gələrkən, Eynşteynin 1917-ci il tarixli məqaləsindəki səhvi də (kosmik sabiti) düzəltmiş oldu.

Friedmannın tapdığı həlləri istifadə edən ilk adam, Belçikalı alim Georges Lemaitre (1894-1966) idi. Lemaitre, bu həllərə söykənərək kainatın bir başlanğıcı olduğunu və bu başlanğıcdan etibarən davamlı olaraq genişlədiyini nəzərdə tutdu. Ayrıca, bu başlanğıc anından qalan işıldamanın da müəyyən oluna biləcəyini ifadə etdi (irəlidə, kosmik fon radiasiyası olaraq adlandırılacaq bu işıldama müşahidələrlə də təsbit ediləcəkdi).

## Big Bangın Kəşfi



Kainatın genişlədiyi həqiqəti, o günə qədər qəbul olunan "sabit (statik) kainat" modelindən tamamilə fərqli bir kainat modeli ortaya qoydu. Kainat genişlədiyinə görə, zaman içində geriyə doğru gedildiyində kainatın tək bir nöqtədən başladığı ortaya çıxırdı.

Edilən hesablamalar, kainatın bütün maddəsini içində saxlayan bu **"tək nöqtə"**nin**, "sıfır həcmə"** və "sonsuz sıxlığa" sahib olması lazım olduğunu göstərdi. Kainat, sıfır həcmə sahib bu nöqtənin partlamasıyla ortaya çıxmışdı. Bu partlayışa "Big Bang" (Böyük Partlama) adı verildi və bu nəzəriyyə də eyni adla xatırlanmağa başlandı.

"Heç bir həcmi olmayan, yəni heç bir yer tutmayan və sıxlığı sonsuz olan bir nöqtə necə ola bilər?" deyə bir sual ağılınıza gələ bilər. Əslində, "həcmi olmayan sonsuz sıxlıqdakı nöqtə" nəzəri bir ifadə formasıdır. Çünki, elmi

olaraq "sıfır həcm" şəklində ifadə edilən bir nöqtə, həcmi olmayan bir nöqtə deməkdir. Əslində isə həcmi olmayan bir nöqtə "yox" deməkdir. Bu səbəbdən, kainat **"yox"** ikən **"var"** hala gəlmişdir. Bu həqiqət isə, materializmin "kainat sonsuzdan bəri vardır" fərziyyəsini etibarsız etməkdədir.

## "Sabit Vəziyyət" Sınağı

Materialist fəlsəfəni mənimsəyən astronomlar, Big Banga qarşı müqavimət göstərməyə və sabit vəziyyət nəzəriyyəsinə dəstək olmağa çalışdılar. Bu səyin səbəbi, öndə gedən fizikaçılardan A. S. Eddingtonun **"fəlsəfi olaraq təbiətin bu ankı nizamının birdən-birə başlamış olduğu düşüncəsi mənə itələyici (uzaqlaşdırıcı) gəlməkdədir"** sözündən aydın olmaqda idi.[3]

Big Bang nəzəriyyəsindən narahat olanların başında dünya tərəfindən tanınmış İngilis riyaziyyatçısı və astronomu Fred Hoyl gəlirdi. Hoyl, əsrin ortalarında "steady-state" (sabit vəziyyət) adında, XIX əsrdəki sabit kainat anlayışına bənzər başqa bir model ortaya atdı. Hoyle, kainatın genişlədiyini qəbul etməklə birlikdə, kainatın ölçü və zaman baxımından sonsuz olduğunu iddia edirdi.

Ayrıca bu modelə görə, kainat genişlədikcə maddə lazım olduğu miqdarda, birdən-birə, öz-özünə var olmağa başlayırdı. Yeganə məqsədi materialist fəlsəfənin təməli olan "sonsuzdan bəri var olan maddə" doqmasını dəstəkləmək olan bu nəzəriyyə, kainatın başlanğıcı olduğunu müdafiə edən "Böyük Partlama" nəzəriyyəsi ilə daban-dabana zidd idi.

Sabit vəziyyət nəzəriyyəsini müdafiə edənlər uzunca bir müddət Big Banga qarşı müqavimət göstərdilər. Amma elm əleyhlərinə işləyirdi.

# Big Bangın Yeni Dəlillərindən Kosmik Fon Radiasiyası

1948-ci ildə Corc Gamov, Big Bangla əlaqədar olaraq yeni bir iddia ortaya atdı. Buna görə, kainatın Böyük Partlama ilə meydana gəlməsi halında, kainatda bu partlamadan qalan bir radiasiyanın olması lazımlı idi. Üstəlik bu radiasiya kainatın hər yanına bərabər dağılmış olmalı idi.


Corc Gamov

"Olması lazım olan" bu dəlil çox keçmədən tapıldı. 1965-ci ildə Arno Penzias və Robert Wilson adlı iki araşdırmaçı bu dalğaları kəşf etdilər. "Kosmik Fon Radiasiyası" adı verilən bu radiasiya, kosmosun müəyyən bir tərəfindən gələn hər hansı bir radiasiyadan çox fərqli idi. Fövqəladə bir koherentlilik(eyni mənbədən yaranmış olma) sərgiləyirdi. Başqa bir ifadə ilə lokal mənşəli deyil, kainatın bütününə dağılmış bir radiasiya idi.

Beləcə uzun müddətdir kainatın hər yerindən bərabər ölçüdə alınan 3 Kelvinlik istilik dalğasının, Big Bangın ilk dövrlərindən qalma olduğu aydın oldu. Üstəlik bu rəqəm elm adamlarının əvvəldən nəzərdə tutduqları rəqəmə çox yaxın idi. Yalnız tək bir dalğa boyunda (mikrodalğa) ölçmələr edə bildikləri halda Penzias və Wilson, Böyük Partlamanın bu xüsusi isbatını təcrübi olaraq ilk göstərən kəslər olduqları üçün Nobel Mükafatı qazandılar.

1989-cu ilə gəlindiyində isə, Corc Smut və rəhbərliyindəki Nasa qrupu, Kosmik geri-Plan İşıldama Kəşfçisi Peykini (COBE) kosmosa göndərdilər. Bu inkişaf etmiş peykə yerləşdirilən həssas skanerlərin, Penzias və Wilsonun ölçümlərini təsdiqləməsi yalnız 8 dəqiqə davam etdi. Skanerlər, kainatın başlanğıcındakı Böyük Partlamanın istilik və sıxlığına aid qalıqları qəti bir şəkildə təsbit etdilər.

Bütün zamanların ən böyük kəşfi olaraq adlandırılan bu hadisə, bu qədərlə də məhdud deyildi. COBE 1 peyki kosmosda müəyyən bir nöqtədəki istiliyi bildirirdi. Ancaq COBE 2 peyki, kosmosda iki nöqtə arasında istilik fərqi olduğunu kəşf etdi. Məsələn galaktik ulduz çoxluqlarındakı istilik, kosmik boşluqlara görə daha çox idi. Bu isə, böyük partlamadan sonra meydana gələn istiliyin getdikcə soyuyaraq fərqliləşdiyini göstərirdi. Bu hadisədən sonra, bir

çox elm adamı COBEin müvəffəqiyyətini "Big Bangın fövqəladə bir şəkildə təsdiqlənməsi" şəklində şərh etdi.

## Bir Başqa Dəlil: Hidrogen-Helium Nisbəti

Big Bangın digər bir əhəmiyyətli dəlili isə, kosmosdakı hidrogen və helium qazlarının miqdarı oldu. İndiki vaxtda edilən ölçümlərlə aydın oldu ki, kainatdakı hidrogen-helium qazlarının nisbəti, Big Bangdan geriyə qaldığı nəzəri olaraq hesablanmış hidrogen-helium nisbətinə uyğun gəlməkdə idi.

Bilindiyi kimi ulduzlar, ehtiva etdikləri hidrogen qazını nüvə reaksiyası ilə heliuma çevirərək enerji çıxarırlar. Əgər kainatın bir başlanğıcı olmayıb sonsuzdan gəlmiş olsaydı, ulduzlardakı bütün hidrogenin tamamilə tükənmiş və heliuma çevrilmiş olması lazım idi. Lakin ulduzlarda olan hidrogen qazının hələ tükənməmiş olması və bu qazı davamlı heliuma çevirərək enerji çıxarmağa davam etmələri, kainatın sonsuz olmadığının və bir başlanğıcı olduğunun qəti bir dəlilini meydana gətirməkdədir.

## Big Bangın Zəfəri


Fred Hoyl

Bütün bu açıq dəlillər Big Bang nəzəriyyəsinin elm dünyasında qəti bir qəbul görməsinə gətirib çıxardı. Big Bang modeli; elmin, kainatın meydana gəlməsi və başlanğıcı haqqında çatdığı son nöqtə idi. Fred Hoyl ilə birlikdə uzun illər Sabit Vəziyyət nəzəriyyəsini müdafiə edən Dennis Sciama, ard-arda gələn və Big Bangı isbat edən bütün bu dəlillər qarşısında içinə düşdükləri vəziyyəti belə izah edir:

**Sabit Vəziyyət nəzəriyyəsini müdafiə edənlərlə, onu test edən və məncə onu çürütməyə ümid edən müşahidəçilər arasında, bir dövr çox sərt çəkişmə vardı. Bu dövr içində mən də bir rol boynuma götürmüşdüm. Çünki həqiqətinə inandığım üçün deyil, həqiqət olmasını istədiyim üçün "Sabit Vəziyyət" nəzəriyyəsini müdafiə edirdim. Nəzəriyyənin etibarsızlığını isbat edən dəlillər ortaya çıxmağa başladıqca Fred Hoyl bu dəlilləri qarşılamada lider rol boynuna götürmüşdü. Mən də yanında iştirak etmiş, bu düşməncə dəlillərə necə cavab verilə biləcəyi mövzusunda fikir icra edirdim. Amma dəlillər yığıldıqca artıq oyunun bitdiyi və Sabit Vəziyyət nəzəriyyəsinin bir kənara buraxılması həqiqəti ortaya çıxırdı.**[4]

Kaliforniya Universitetindən Prof. Corc O. Abell isə, "**Bugünkü mövcud dəlillər, kainatın milyardlarla il əvvəl Big Bang ilə başladığını göstərməkdədir. Big Bang nəzəriyyəsini qəbul etməkdən başqa çarəmiz qalmır.**"[5] demişdir.

Big Bangın bu zəfəri ilə birlikdə, materialist doqmanın təməli olan "**əzəli maddə**" anlayışı da tarixə qarışmış olurdu. Yaxşı o zaman Big Bangdan əvvəl nə vardı və "**yox**" olan kainatı bu böyük partlama ilə "**var**" hala gətirən güc nə idi? Əlbəttə ki bu sual, A. S. Eddingtonun ifadəsiylə materialistlər üçün "fəlsəfi olaraq itələyici (uzaqlaşdırıcı)" olan həqiqəti, yəni bir **Yaradıcının** varlığını göstərməkdədir. Məşhur ateist fəlsəfəçi Anthony Flew, bu mövzuda bunları söyləyir:

**Etiraflarda olmanın insan ruhuna yaxşı gəldiyini söyləyərlər. Mən də bir şeyi etiraf edəcəyəm: Mövcud kosmik konsensus (Big Bang modeli), bir ateist baxımından olduqca çətinlik vericidir. Çünki elm, dini qaynaqlar tərəfindən müdafiə olunan bir iddianı isbat etmişdir: "Kainatın bir başlanğıcı olduğu" iddiasını. Yalnız kainatın bir sonunun və başlanğıcının olmadığını qəbul etdiyimiz müddətcə, kainatın indiki varlığının mütləq bir şərhi olduğunu müdafiə edə bilərik. Mən hələ bu şərhə inanıram, amma bunu Big Bang qarşısında müdafiə etmənin çox asan və rahat bir vəziyyət olmadığını etiraf etməliyəm.**[6]

Özünü ateist olmaq üçün kor-koranə şərtləndirməyən bir çox elm adamı isə, kainatın yaradılışında sonsuz güc sahibi bir Yaradıcının varlığını qəbul etmiş vəziyyətdədir. Bu Yaradıcı, həm maddəni həm də zamanı yaratmış, yəni hər ikisindən də müstəqil olan bir varlıq olmalıdır.

Kainat elm mövzusunda əhəmiyyətli işləri olan məşhur riyaziyyatçı Roger Penrose belə bir şərh edər:

**... Amma kainatın qətiliklə bir məqsədinin olduğunu göstərən bir şey var ki, o da kainatın şans əsəri orada dayanmadığıdır. Bəzi insanlara görə, "kainat sadəcə oradadır." Elə olmağa davam edir. Biz də özümüzü birdən-birə bu şeyin içində tapmışıq. Bu dünyagörüşünün, kainatı anlamamızda çox məhsuldar ya da köməkçi olacağını sanmıram. Məncə kainat və onun varlığının altında bu gün hələ yaxşı sezə bilmədiyimiz çox daha dərin bir şeylər gizlidir.[7]**

## Quranda 14 Əsr Əvvəl Xəbər verilən Həqiqətlər

Bura qədər yekunlaşdırmaq lazım olsa, astrofizikanın çatdığı qəti nəticə, bütün kainatın maddə və zaman ölçüləriylə birlikdə, bir sıfır anında böyük bir partlama ilə (Big Bang) varlıq tapdığı idi. Big Bangdan əvvəl maddə deyə bir şey yox idi. Maddənin, enerjinin, hətta zamanın da belə olmadığı, tamamilə metafizik olaraq təyin oluna biləcək bir yoxluq mühitində maddə, enerji və zaman var olmuşdu. Halbuki, müasir fizikanın ancaq XX əsrin sonlarına doğru çatdığı bu böyük həqiqət Quranda bizlərə 14 əsr əvvəldən xəbər verilməkdə idi:

**O, göyləri və yeri (yoxdan) var edəndir... (Ənam surəsi, 101)**

Bilindiyi kimi Big Bang nəzəriyyəsi, başlanğıcda kainatdakı bütün cisimlərin bir yerdə olduqlarını və sonradan ayrıldıqlarını göstərmişdir. Big Bang nəzəriyyəsinin ortaya qoyduğu bu həqiqət isə zamanımızdan tam 14 əsr əvvəl insanların kainat haqqındakı məlumatlarının son dərəcə məhdud olduğu bir dövrdə Quranda belə bildirilməkdədir:

**Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi? Yenə də iman gətirməzlər? (Ənbiya surəsi, 30)**

Mövzumuzun başında da gördüyümüz kimi, "kainatın genişləməsi" Böyük Partlama nəzəriyyəsinin yəni kainatın yoxdan var edildiyinin ən əhəmiyyətli dəlillərindən biridir. Kainat yaradıldığından bəri davam edən və müasir elm tərəfindən ancaq XX əsrdə müəyyən oluna bilmiş olan bu hadisədən, bundan XIV əsr əvvəl göndərilmiş olan Quranda belə bəhs edilir:

**...Biz göyü qüdrətimizlə yaratdıq və Biz onu genişləndirməkdəyik. (Zariyat surəsi, 47)**

## Nizam Gətirən Partlama

Əslində Big Bangın ateistlər və materialistlər (ikisi demək olar ki, sinonimdir) baxımından meydana gətirdiyi problem, ateist fəlsəfəçi Anthony Flewin yuxarıda etiraf etdiyindən çox daha böyükdür. Çünki Big Bang, kainatın yalnız yoxdan var edildiyini deyil, eyni zamanda çox planlı, nizamlı və idarəli bir şəkildə var edildiyini göstərməkdədir.

Bunun səbəbi, bir partlama olan Big Bangın ardından kainatda çox nizamlı bir quruluşun ortaya çıxmasıdır. Halbuki partlamalar nizamlılıq meydana gətirməzlər. Müşahidə etdiyimiz bütün partlamalar, var olan nizamlılığı pozar, parçalar və yox edərlər. Məsələn, atom və hidrogen bombalarının partlaması, vulkanik partlamalar, təbii qaz partlaması, Günəşdə

meydana gələn partlamalar... Hansı növ partlama araşdırılırsa araşdırılsın, təsirlərinin həmişə dağıdıcı olduqları görülər.

Ancaq bir partlamanın ardından qarşımıza çox incə detallı bir dizayn çıxarsa, bu vəziyyətdə bu partlamanın ardında **"fövqəltəbii"** bir müdaxilə olduğu, partlamaqla birlikdə dağılan bütün parçacıqların əslində çox idarəli bir şəkildə hərəkət etdirildikləri nəticəsinə çatarıq.

Big Bang nəzəriyyəsinə uzun illər qarşı çıxmış olan Sir Fred Hoylun sözləri, tam da bu vəziyyəti ifadə edir:

**Big Bang nəzəriyyəsi kainatın tək və böyük bir partlama ilə başladığını qəbul edər. Amma bildiyimiz kimi partlamalar maddəni dağıdar və nizamsızlaşdırarlar. Halbuki Big Bang çox sirrli bir şəkildə bunun tam əksinə bir təsir meydana gətirmişdir. Maddəni bir-biriylə birləşəcək və qalaktikaları meydana gətirəcək hala gətirmişdir.**[8]

Hoyl, Big Bangın nizamlılıq meydana gətirməsinin ziddiyyətli bir vəziyyət olduğunu söyləyərkən, əlbəttə Big Bangı materialist bir ön mühakimələ şərh etməkdə, yəni bunun bir "idarəsiz partlama" olduğunu fərz etməkdədir. Halbuki, bir Yaradıcının yəni Allahın varlığını qəbul etməmək üçün belə bir şərh edərək, ziddiyyətli bir vəziyyətə düşən elə özü olmuşdur. Çünki, partlamaqla birlikdə ortaya çox böyük bir nizam çıxmışsa, o zaman "idarəsiz partlama" fikirinin bir kənara atılması və partlamanın fövqəladə bir şəkildə idarəli olduğunun qəbul edilməsi lazımdır.

Bu nizamlılıq, Big Bangdan sonrakı hər mərhələ üçün etibarlıdır. Big Bangla birlikdə ortaya çıxan maddə, bu gün "atom altı parçacıqlar" dediyimiz hissəciklərdir. Amma bunlar -Hoylun ifadə etdiyi kimi "sirli bir şəkildə"- bir yerə gələrək atomları meydana gətirmişlər, həm də kainatın hər bir yerində və hər bir hissəsində. Böyük bir nizamlılıq içində yaranan bu atomlar kainatın müəyyən bölgələrində sıxlaşaraq qalaktikaları meydana gətirmişlər.

Bu qalaktikaların içində ulduzlar, ulduzların ətrafında isə ulduz sistemləri və planetlər meydana gəlmişdir. Bütün bu nəhəng göy cisimləri fövqəladə dərəcədə nizamlıdırlar. Kainatda təxminən 300 milyard qalaktika olduğunu və bunların hər birinin içində təxminən yenə 300 milyard ulduz

olduğunu düşünsək, söz mövzusu nizam və tarazlığın nə qədər fövqəladə olduğunu da daha asan anlaya bilərik.

## Həssas Tarazlıqlar

Big Bangın ardından kainatda yaranan bu fövqəladə nizamlılığın bir başqa istiqaməti isə, **"yaşamağa əlverişli bir kainat"**ın meydana gəlmiş olmasıdır. Həyata imkan tanıyacaq bir planetin meydana gələ bilməsi üçün reallaşması lazım olan şərtlər o qədər çoxdur ki, bunun təsadüfi bir meydana gəlmə olduğunu düşünmək qeyri-mümkündür.

Məşhur bir nəzəri fizika professoru olan Paul Davies, Big Bang sonrasındakı genişləmə sürətinin nə qədər "həssas nizamlanmış" olduğunu hesablamış və inanılmaz bir nəticəyə çatmışdır. Daviesə görə, Big Bangın ardından reallaşan genişləmə sürəti əgər milyard dəfə milyardda bir nisbətdə belə fərqli olsaydı, həyata imkan təmin edəcək bir ulduz tipi meydana gələ bilməz və kainatda canlılıq ortaya çıxa bilməzdi:

**Hesablamalar, kainatın genişləmə sürətinin çox kritik bir nöqtədə seyr etdiyini göstərməkdədir. Əgər kainat bir az belə daha yavaş genişləsə cazibə qüvvəsi səbəbiylə içinə çökəcək, bir az daha sürətli genişləsə kosmik material tamamilə dağılıb gedəcəkdi. Bu iki fəlakət arasındakı tarazlığın nə qədər "yaxşı hesablanmış" olduğu sualının cavabı çox maraqlıdır. Əgər IS zamanında (partlama sürətinin müəyyən hala gəldiyi zamanda) partlama sürəti həqiqət sürətindən yalnız $10^{18}$ qədər belə fərqliləşsəydi, bu lazımlı tarazlığı yox etməyə çatacaqdı. Bu səbəbdən kainatın partlama sürəti inanılmayacaq qədər həssas bir qətiliklə təyin olunmuşdur. Bu səbəblə Big Bang hər hansı bir partlama deyil, hər istiqamətiylə çox yaxşı hesablanmış və təşkil edilmiş bir meydana gəlmədir.[9]**

Kainatdakı bu möhtəşəm tarazlıq elmi bir jurnalda belə ifadə edilir:

**Əgər kainatda maddənin sıxlığı, bir qədər daha çox olsaydı, o zaman Eynşteynin Ümumi Nisbilik nəzəriyyəsinə görə kainat, atom parçacıqların cazibə qüvvələri səbəbindən heç cür genişləyə bilməyəcək və təkrar kiçilərək bir nöqtəciyə çevriləcəkdi. Əgər sıxlıq başlanğıcda bir qədər daha az olsaydı, o zaman kainat son sürətlə genişləyəcək, lakin bu təqdirdə atom parçacıqlar bir-birini çəkib tuta bilməyəcək və ulduzlarla qalaktikalar heç bir zaman meydana gələ bilməyəcəkdi. Təbiidir ki, biz də olmayacaqdıq! Edilən hesablara görə, kainatımızın başlanğıcdakı həqiqət sıxlığı ilə kənarında meydana gəlməsi imkanı olmayan kritik sıxlığı arasındakı fərq, yüzdə birin bir kuvadrilyonundan azdır. Bu, bir qələmi iti ucu üzərində bir milyard il sonra da dayana biləcək şəkildə yerləşdirməyə bənzər... Üstəlik, kainat genişlədikcə, bu tarazlıq daha da həssaslaşmaqdadır.[10]**

Stephen Hawking isə, *Zamanın Qısa Tarixi* adlı kitabında genişləmə sürətindəki tarazlığı belə açıqlayır:

**Kainatın genişləmə sürəti o qədər kritik bir nöqtədədir ki, Big Bangdan sonrakı birinci saniyədə bu nisbət əgər yüz min milyon dəfə milyonda bir qədər daha kiçik olsaydı kainat indiki vəziyyətinə gəlmədən içinə çökərdi.[11]**

Paul Davies, bu çox maraqlı vəziyyət qarşısında belə söyləməkdədir:

**Çox kiçik ədədi dəyişikliklərə həssas olan kainatın bu andakı quruluşunun, çox diqqətli bir şüur tərəfindən ortaya çıxarıldığına qarşı çıxmaq çox çətindir... Təbiətin ən fundamental tarazlıqlarındakı həssas ədədi tarazlıqlar, kosmik bir dizaynın varlığını qəbul etmək üçün olduqca güclü bir dəlildir.[12]**

Eyni həqiqət qarşısında Amerikalı astronomiya professoru Corc Greenstein də, *The Symbiotic Universe* adlı kitabında belə yazır:

**Dəlilləri araşdırdıqca, israrla əhəmiyyətli bir həqiqətlə qarşı-qarşıya gəlirik. (Kainatın meydana gəlməsində) bir fövqəltəbii ağıl - ya da Ağıl- dövrəyə girmiş olmalıdır.**[13]

Nəticə olaraq, kainatdakı möhtəşəm sistemi araşdırsaq kainatın yaranması və işləyişinin təsadüfü səbəblərlə açıqlana bilməyəcək qədər kompleks bir nizam və həssas tarazlıqlar ehtiva etdiyi həqiqətiylə qarşılaşarıq. Açıqca aydın olacağı kimi bu həssas tarazlıq və incə nizamın böyük bir partlamanın sonrasında öz-özünə və təsadüfən reallaşması, qeyri-mümkün anlayışının belə sərhədlərini aşacaq bir vəziyyət olardı.

Big Bang kimi bütün kainatın maddə və enerjisini ortaya çıxaran bir partlamanın ardından belə bir nizamın meydana gəlməsi ancaq hər anına şüurlu müdaxilələr nəticəsində reallaşa bilər. Bu da kainatı yoxdan var edən və onun hər anını idarəsi və hakimiyyəti altında saxlayan Allahın yaratmasıdır.

## Materializmin Sonu

Bütün bu həqiqətlər, bir XIX əsr doqması olan materialist fəlsəfənin iddialarının XX əsr elmi tərəfindən etibarsız qılındığının göstəriciləridirlər. Materializm, hər şeyi maddədən ibarət saymaqla, maddəni ortaya çıxaran və təşkil edən bir Yaradıcının varlığını rədd etmiş, amma şiddətlə yanılmışdır.

Müasir elm maddi dünyada var olan böyük plan, dizayn və nizamı ortaya çıxarmaqda və maddi dünyaya hakim olan bir Yaradıcının, yəni Allahın varlığını isbat etməkdədir. Kainatda qarşılaşdığımız bu dizayn, canlılar dünyasında da ortaya çıxmaqda və materializmin ən böyük dayağı sayılan Darvinin təkamül nəzəriyyəsi də bu səbəblə çökməkdədir.

Materializm əsrlər boyunca bir çox insana təsir etmiş, hətta XIX əsrdə "elmilik" maskasına bürünmüş ola bilər. Amma görünən odur ki, XXI əsrdə elmə

zidd bir batil inanış olaraq tarixə keçəcək. İnsanlıq dünyanın öküzün buynuzları üzərində dayandığı ya da düz olduğu kimi batil inanışlardan xilas olmuşdur, eyni şəkildə materializmdən də xilas olacaq.

## XƏBƏRDARLIQ

Oxuyacağınız bu hissə, həyatın **ÇOX ƏHƏMİYYƏTLİ** bir sirrini ehtiva etməkdədir. Maddi dünyaya baxış aspektinizi kökdən dəyişdirəcək olan bu mövzunu, çox diqqətli bir şəkildə və anlayaraq oxumalısınız.

Burada izah ediləcək olanlar yalnız bir dünyagörüşü, fərqli bir yanaşma və ya hər hansı bir fəlsəfi düşüncə deyil; dinə inanan-inanmayan hər kəsin qəbul edəcəyi, bu gün elmin də sübut etdiyi qəti bir həqiqətdir.

# II HİSSƏ

# MADDƏNİN ARDINDAKI SİRR

Ətrafını ağıl və vicdan yoluyla izləyən adam kainatdakı canlı-cansız hər şeyin yaradılmış olduğunun fərqinə varar. Yaxşı bütün bunlar kim tərəfindən yaradılmışdır?

Açıqdır ki, kainatın hər nöqtəsində özünü müəyyən edən **"yaradılmışlıq"**, kainatın özünün bir məhsulu ola bilməz. Məsələn bir böcək öz-özünü var etməmişdir. Günəş sistemi, bitkilər, insanlar, bakteriyalar, qırmızı qan hüceyrələri, kəpənəklər öz-özlərini yaratmamışlar. Bütün bunların "təsadüfən" meydana gəlmələri kimi bir ehtimal da, kitabın əvvəlki səhifələrində araşdırdığımız kimi, mümkün deyil.

Bu səbəbdən bu nəticəyə vara bilərik: Gözümüzlə gördüyümüz hər şey yaradılmışdır... Ancaq gözümüzlə gördüyümüz şeylərin heç biri "Yaradıcı" deyil. O halda, Yaradıcı, gözümüzlə gördüyümüz hər şeydən başqa, üstün bir varlıqdır. Özü görünməyən, lakin yaratdığı hər şeydə Özünün varlığını və xüsusiyyətlərini göstərdiyi üstün bir gücdür.

Bax Allahın varlığını tanımayanların sapdığı nöqtə də buradadır. Bu kəslər özlərini, Allahı gözləriylə görmədikləri müddətcə, Onun varlığına iman etməməyə şərtləndirmişlər. Ancaq bu vəziyyətdə, kainatın hər yerində açıq-aşkar görünən **"yaradılmışlıq"** həqiqətini gizləmək, kainatın və canlıların yaradılmamış olduğunu iddia etmək məcburiyyətində qalarlar. Bunu etmək üçün yalanlara müraciət edərlər. Təkamül nəzəriyyəsi və materialist fəlsəfə bu mövzuda müraciət edilən yalanların və nəticəsiz çırpınışların ən çox diqqətə çarpan iki nümunəsidir.

İnkar edənlərin təməl yanılması, əslində Allahın varlığını inkar etməyən, ancaq əyri bir Allah inancına sahib olan bir çox adam tərəfindən də paylaşılır. Cəmiyyətin əksəriyyətini meydana gətirən bu kəslər, yaradılışı rədd etməzlər, ancaq Allahın "harada" olduğuna dair maraqlı batil inancları vardır: Çoxu, Allahın "göydə" olduğunu sanar. Şüuraltındakı düşüncəyə görə, Allah çox uzaqlardakı bir planetin arxasındadır və çox nadir olaraq "dünya işlərinə" müdaxilə edər. Ya da heç etməz; kainatı yaratmış və buraxmışdır, insanlar öz talelərini özləri yazarlar...

Kimiləri də Quranın Allahın “hər yerdə” olduğuna dair xəbərini eşitmişlər, lakin bunun mənasını tam olaraq həll edə bilməzlər. Şüuraltındakı batil düşüncə; Allahın radio dalğaları ya da görünməz, hiss edilməz bir qaz kimi, maddələri bürüdüyü şəklindədir.

Halbuki bu düşüncə və başdan bəri saydığımız, **Allahın “harada” olduğunu** heç cür həll edə bilməyən (bəlkə də buna görə Onu inkar edən) düşüncələr, ortaq bir səhvə söykənməkdədirlər: Heç bir təməli olmayan bir ön fikri mənimsəməkdə, ondan sonra da Allah ilə əlaqədar olaraq zənlərə qapılmaqdadırlar.

Nədir bu ön mühakimə?

Bu ön mühakimə maddənin varlığı və xüsusiyyəti ilə əlaqədardır. Maddənin var olduğu mövzusunda elə şərtlənmişik ki, görəsən həqiqətən vardırmı, yoxsa yalnız bir kölgə varlıqdırmı deyə, heç düşünməmişik. Halbuki müasir elm, bu ön fikri də yıxaraq, çox əhəmiyyətli və təsir edici bir həqiqəti ortaya qoymaqdadır. İrəliləyən səhifələrdə Quranda da işarə edilən bu böyük həqiqəti şərh etməyə çalışacağıq.

## Elektrik Siqnallarından İbarət Olan Kainat

Yaşadığımız dünya ilə əlaqədar bütün məlumatlarımız bizə beş duyğumuz vasitəsi ilə gəlir. Yəni biz gözümüzün gördüyü, əlimizin toxunduğu, burnumuzun iylədiyi, dilimizin daddığı, qulağımızın eşitdiyi bir dünyanı tanıyırıq. Anadan olandan etibarən bu duyğulara bağlı olduğumuz üçün “**xarici dünya**”nın, duyğularımızın bizə tanıtdığından fərqli ola biləcəyini heç düşünməmişik.

Halbuki, bu gün bir çox elm sahəsində edilən araşdırmalar son dərəcə fərqli bir anlayışı özü ilə gətirmiş, hisslərimiz və qəbul etdiyimiz dünya ilə əlaqədar ciddi şübhələrin meydana gəlməsinə səbəb olmuşdur.

Bu yeni anlayışın çıxış nöqtəsi isə budur: Bizim “**xarici dünya**” hesab etdiklərimiz, yalnız elektrik siqnallarının beyində yaratdığı təsirlərdir. Almanın qırmızılığı, taxtanın sərtliyi, bundan əlavə ananız, atanız, ailəniz, sahibi

olduğunuz bütün mallar, eviniz, işiniz və bu kitabın sətirləri yalnız və yalnız beyninizdəki elektrik siqnallarından ibarətdir.

Frederick Vester elmin bu mövzuda çatdığı nöqtəni belə ifadə edir:

**Bəzi mütəfəkkirlərin, insan bir xəyaldır, əslində bütün yaşananlar keçici və aldatıcıdır, bu kainat bir kölgədir şəklindəki sözləri indiki vaxtda elmi olaraq sübut edilirmiş kimidir.**[14]

Məşhur filosof Corc Berkelenin, bu təəccübləndirici həqiqət ilə əlaqədar şərhi isə belədir:

**Özlərini gördüyümüz və toxunduğumuz üçün, bizə hisslərimizi verdikləri üçün obyektlərin varlığına inanırıq. Halbuki hisslərimiz yalnız zehinimizdə var olan fikirlərdir. Bu halda hisslər vasitəsilə çatdığımız obyektlər fikirlərdən başqa bir şey deyildirlər və bu fikirlər, zəruri olaraq zehinimizdən başqa yerdə olmazlar... Bütün bunlar madam ki, yalnız zehində var olan şeylərdir, elə isə kainatı və əşyaları zehinin xaricində varlıqlar olaraq xəyal etdiyimizdə, yanılmaların içinə düşmüş olarıq deməkdir... Elə isə bizi əhatə edən şeylərin heç birinin bizim zehinimizin xaricində bir varlığı yoxdur.**[15]

Mövzunu tam olaraq açıqlamaq üçün əvvəlcə, xarici dünya haqqında bizə məlumat verən duyğularımızdan danışaq.

## Necə Görürük, Eşidirik, Dadırıq?

Görmə əməliyyatı çox mərhələli bir şəkildə reallaşar. Görmə əsnasında, hər hansı bir cisimdən gələn işıq dəstələri (fotonlar), gözün önündəki linzanın içindən sınaraq keçər və gözün arxa tərəfindəki retinaya tərs olaraq düşərlər. Buradakı hüceyrələr tərəfindən

elektrik siqnalına çevrilən görmə xəbərdarlıqları(siqnalları), sinirlər vasitəsi ilə, beynin arxa qisimindəki görmə mərkəzi adı verilən kiçik bir bölgəyə çatarlar. Bu elektrik siqnalı bir silsilə əməliyyatdan keçdikdən sonra beyindəki bu mərkəzdə görünüş hesab edilir. Yəni görmə hadisəsi, əslində beynin arxasındakı kiçik, **işığın heç bir şəkildə girə bilmədiyi, qapqaranlıq bir bölgədə** baş verir.

İndi ümumiyyətlə hər kəs tərəfindən bilinən bu məlumat üzərində bir dəfə daha diqqətlicə düşünək: Biz, "görürəm" deyərkən, əslində gözümüzə gələn xəbərdarlıqların elektrik siqnalına çevrilərək beynimizdə meydana gətirdiyi "**təsir**"i görərik. Yəni **"görürəm" deyərkən, əslində beynimizdəki elektrik siqnallarını seyr edərik.**

Həyatımız boyunca gördüyümüz hər görünüş bir neçə $sm^3$–luq görmə mərkəzində meydana gələr. Oxuduğunuz bu sətirlər də, üfüqə baxdığınızda gördüyünüz ucsuz-bucaqsız mənzərə də, bu kiçik yerdə meydana gəlməkdədir. Bu vaxt gözdən qaçırılmaması lazım olan bir nöqtə daha vardır. Az əvvəl ifadə etdiyimiz kimi, kəllə sümüyü işığı içəri keçirməz, yəni beynin içi qapqaranlıqdır. Bu səbəbdən beynin işığın özüylə qarşılaşması əsla mümkün deyil.



Buradakı maraqlı vəziyyəti bir misalla açıqlayaq. Qarşımızda bir şam olduğunu düşünək. Bu şamın qarşısına keçib onu uzun müddət izləyə bilərik. Amma bu müddət boyunca beynimiz, şama aid işığın əsli ilə heç bir zaman qarşılaşmaz. Şamın işığını gördüyümüz anda belə başımızın və beynimizin içi qapqaranlıqdır. Qapqaranlıq beynimizin içində, işıqlıq, par-par və rəngli bir dünyanı seyr edirik.

R. L. Gregory, görmə hadisəsindəki möcüzəvi vəziyyəti belə ifadə etməkdədir:

**Görmə hadisəsinə o qədər alışmışıq ki, həll edilməsi lazım olan suallar olduğunun fərqinə varmaq böyük bir təxəyyül tələb edir. Lakin bunu diqqətə alın. Gözlərimizə kiçik kəlləmayallaq olmuş görüntülər verilir və biz ətrafımızda bunları möhkəm obyektlər olaraq görürük. Retinaların üzərindəki xəbərdarlıqların nəticəsində obyektlər dünyasını qəbul edirik və bu bir möcüzədən fərqsizdir əslində.**[16]

Eyni vəziyyət digər hisslər üçün də etibarlıdır. Səs, toxunma, dad və qoxu, bir elektrik siqnalı olaraq beyinə çatar və buradakı əlaqədar mərkəzlərdə qəbul edilərlər.

Eşitmə də bənzər şəkildə reallaşar: Xarici qulaq, ətrafdakı səs dalğalarını qulaq seyvanı vasitəsiylə yığıb orta qulağa çatdırar; orta qulaq götürdüyü səs titrəşmələrini gücləndirərək daxili qulağa ötürər; daxili qulaq da bu titrəşmələri elektrik siqnallarına çevirərək beyinə göndərər. Eyni ilə görmədə olduğu kimi eşitmə əməliyyatı da beyindəki eşitmə mərkəzində reallaşar. Kəllə sümüyü işığı keçirmədiyi kimi səsi də keçirməz. Bu səbəbdən bir insanın eşitdiyi səslər nə qədər güclü və gurultulu da olsa beynin içi tamamilə səssizdir.

Buna baxmayaraq ən dəqiq səslər beyində dərk edilir. Elə bir dəqiqlikdir ki bu; sağlam bir insan qulağı heç bir cızıltı, heç bir xışıltı olmadan hər şeyi eşidər. Səs keçirməyən beyninizdə bir orkestranın simfoniyalarını dinləyirsiniz, izdihamlı bir mühitin bütün səs-küyünü eşidirsiniz, bir yarpağın xışırtısından reaktiv təyyarələrinin səs-küyünə qədər geniş bir tezlik aralığındakı bütün səsləri qəbul edə bilirsiniz. Amma, o anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə burada dərin bir səssizliyin hakim olduğu görüləcək.

Qoxu hissimizin meydana gəlməsi də buna bənzərdir: Vanil qoxusu, gül qoxusu kimi uçucu molekullar, burnun epitelyum deyilən bölgəsindəki titrək tüklərdə olan reseptorlara gəlirlər və bu reseptorlarda qarşılıqlı reaksiyaya girərlər. Bu qarşılıqlı təsir beynimizə elektrik siqnalı olaraq çatdırılar və qoxu hesab edilər. Nəticədə bizim gözəl ya da çirkin deyə adlandırdığımız qoxuların

hamısı uçucu molekulların qarşılıqlı təsirlərinin elektrik siqnalına çevrildikdən sonra, beyində şərh olunma formasından başqa bir şey deyil.

Bir ətiri, bir çiçəyi, sevdiyiniz bir yeməyi, dəniz qoxusunu, xoşunuza gələn ya da gəlməyən hər cür qoxunu beyninizdə hiss edirsiniz. Lakin qoxu molekulları beyinə heç bir zaman çata bilməzlər. Səs və görünüşdə olduğu kimi beyninizə çatan yalnız elektrik siqnallarıdır. Nəticə olaraq, doğulduğunuz andan etibarən çöldəki obyektlərə aid olaraq bildiyiniz qoxular duyğu orqanlarınız vasitəsi ilə hiss etdiyiniz elektrik siqnallarıdır.

Bənzər şəkildə, insan dilinin ön tərəfində də dörd fərqli tip kimyəvi qəbul edici vardır. Bunlar duzlu, şirin, turş və acı dadlarına qarşılıqlıdır. Dad alıcılarımız bir silsilə kimyəvi əməliyyatdan sonra bu hissləri elektrik siqnallarına çevirər və beyinə çatdırarlar. Bu siqnallar da beyin tərəfindən dad hesab edilərlər. Bir şokoladı ya da sevdiyiniz bir meyvəni yediyinizdə aldığınız dad, elektrik siqnallarının beyin tərəfindən şərh olunmasıdır. Çöldəki obyektə isə əsla çata bilməzsiniz; şokoladın özünü görə bilməz, iyləyə bilməz və dada bilməzsiniz. Məsələn, beyninizə gedən dad alma sinirləri kəsilsə, o an yediyiniz hər hansı bir şeyin dadının beyninizə çatması mümkün olmaz; dad alma duyğunuzu tamamilə itirərsiniz.

Bu nöqtədə qarşımıza bir həqiqət daha çıxır: Bir yeməyi daddığımızda bir başqasının o yeməkdən aldığı dadın və ya bir səsi eşitdiyimizdə başqa birinin eşitdiyi səsin bizim qəbul etdiklərimiz ilə eyni olduğundan əmin olmamız mümkün deyil. Bu həqiqətlə əlaqədar Lincoln Barnett belə deməkdədir:

**Heç kim özünün qırmızını ya da "Do" notasını duymağının başqa bir insanınkı ilə eyni olub olmadığını bilə bilməz.[17]**

Toxunma duyğumuza gəldikdə də, dəyişən bir şey olmadığını görərik. Bir cismə toxunduğumuzda xarici dünyanı və obyektləri tanımamıza köməkçi olacaq məlumatlar, dəridəki duyğu sinirləri vasitəsilə beyinə çatdırılarlar. Toxunma hissi beynimizdə meydana gələr. Zənn edildiyi kimi toxunma hissini qəbul etdiyimiz yer barmaq uclarımız ya da dərimiz deyil, yenə beynimizdəki toxunma mərkəzidir.

Bizlər obyektlərdən gələn elektrik xəbərdarlıqlarının beynimizdə qiymətləndirilməsi nəticəsində sərtlik ya da yumşaqlıq, istilik ya da soyuqluq

kimi obyektləri təyin edən fərqli-fərqli hisslər duyarıq. Hətta bir cisimi tanımağa yarayan hər cür detalı bu xəbərdarlıqlar nəticəsində əldə edərik. Bu əhəmiyyətli həqiqətlə əlaqədar olaraq B. Russel və L. Wittgeinstein kimi məşhur filosofların düşüncələri belədir:

**... Bir limonun həqiqətən var olub olmadığı və hansı bir dövrlə var olduğu soruşula bilməz və araşdırıla bilməz. Limon, yalnız dillə aydın olan dad, burunla duyulan qoxu, gözlə görülən rəng və formadan ibarətdir və tək bu xüsusiyyətləri elmi bir araşdırmanın və mühakimənin mövzusu ola bilər. Elm, obyektiv dünyanı əsla bilə bilməz.**[18]

Yəni maddi dünyaya çatmamız qeyri-mümkündür. Qarşılıqlı əlaqədə olduğumuz bütün obyektlər, əslində görmə, eşitmə, toxunma kimi hisslərin cəmindən ibarətdir. Qəbul mərkəzlərindəki məlumatları qiymətləndirən beynimiz, həyatımız boyunca maddənin bizim xaricimizdəki **"əsli" ilə deyil, beynimizdəki surətləri ilə qarşılıqlı əlaqədə olur**. Biz isə bu surətləri xaricimizdəki həqiqət maddə zənn edərək yanılırıq.

## Beynimizin İçində Meydana Gələn "Xarici Dünya"

Bura qədər izah etdiyimiz fiziki həqiqətlər bizi mübahisə edilməz bir nəticəyə çatdırar: Bizim gördüyümüz, toxunduğumuz, eşitdiyimiz və adına "maddə", "dünya" ya da "kainat" dediyimiz anlayışlar, yalnız və yalnız beynimizdə yaranan elektrik siqnallarıdır.

Məsələn, meyvə yeyən biri, əslində meyvənin beynində əmələ gələn surəti ilə əlaqədədir, əsli ilə deyil. Adamın "meyvə" deyə xarakterizə etdiyi şey, meyvənin forması, dadı, qoxusu və sərtliyinə aid elektrik halında olan məlumatın beyində qəbul edilib şərh edilməsindən ibarətdir. Əgər beyinə gedən görmə sinirini kəssəniz, meyvə görünüşü də bir anda yox olar. Və ya burundakı qəbul edicilərdən beyinə uzanan sinirdəki bir qopuqluq, qoxu

qəbulunuzu tamamilə ortadan qaldırar. Çünki meyvə, bəzi elektrik siqnallarını beynin şərh etməsindən başqa bir şey deyil.

Üzərində düşünülməsi lazım olan ayrı bir nöqtə də **uzaqlıq hissidir**. Uzaqlıq, məsələn bu kitabla aranızdakı məsafə, yalnız beyninizdə meydana gələn bir boşluq hissidir. Bir insanın özündən çox uzaqda sandığı maddələr də əslində beyninin içindədir. Məsələn insan göyə baxıb ulduzları seyr edər və bunların milyonlarla işıq ili uzaqda olduqlarını sanar. Halbuki ulduzlar onun içində, beynindəki görünüş mərkəzindədirlər. Bu yazıları oxuyarkən içində oturduğunuzu sandığınız otağın da əslində içində deyilsiniz; əksinə otaq sizin içinizdədir. Bədəninizi görməniz, sizi otağının içində olduğunuza inandırar. **Ancaq bunu unutmayın; bədəniniz də beyninizdə əmələ gələn bir görüntüdür.**

Digər bütün hissləriniz üçün də eyni vəziyyət etibarlıdır. Məsələn, siz yan otaqdakı televiziyanın səsini eşitdiyinizi sanarkən əslində beyninizin içindəki səslə həmsöhbətsiniz. Nə yanda bir otaq olduğunu, nə də o otaqdakı bir televiziyadan səs gəldiyini isbat etməniz mümkün deyil. Metrlərcə uzaqdan gəldiyini sandığınız səs də, dərhal yanınızdakı adamın danışması da əslində beyninizdəki bir neçə sm$^3$–luq eşitmə mərkəzində qəbul edilməkdədir. Bu qəbul mərkəzinin xaricində sağ, sol, ön, arxa kimi bir anlayış yoxdur. Yəni səs sağdan, soldan və ya havadan sizə çatmaz; **səsin gəldiyi bir istiqamət yoxdur.**

Qəbul etdiyiniz qoxular da belədir; heç biri uzaq bir məsafədən sizə çatmaz. Qoxu alma mərkəzinizdə əmələ gələn təsirləri, çöldəki maddələrin qoxusu zənn edərsiniz. Halbuki bir gülün görünüşü necə ki, görmə mərkəzinizin içindədirsə, o gülün qoxusu da eyni şəkildə qoxu hiss etmə mərkəzinizin içindədir; çöldə nə gül vardır, nə də ona aid bir qoxu...

Çünki hisslərimizin bizə tanıtdığı “xarici dünya”, eyni anda beynimizə çatan “elektrik siqnallarının bütünü”ndən başqa bir şey deyil. Beynimiz həyatımız boyunca bu siqnalları qiymətləndirər. Biz də bunları maddənin “çöldəki” əsli sanaraq yanıldığımızın fərqində olmadan bir ömür sürərik. Yanılarıq, çünki hisslərimizlə maddənin özünə əsla çata bilmərik.

“Xarici dünya” sandığımız siqnalları şərh edib mənalı hala gətirən də, yenə bizim beynimizdir. Məsələn, eşitmə qəbulunu ələ alaq. Qulağımızın içinə gələn səs dalğalarının şərhini edərək onu bir simfoniyaya çevirən əslində beynimizdir. Yəni musiqi, beynimizin meydana gətirdiyi bir duyğudur. Rəngləri görərkən də əslində gözümüzə çatan yalnız işığın **fərqli dalğa boylarıdır**. Bu fərqli dalğa boylarını rənglərə çevirən yenə beynimizdir. **“Xarici dünyada” rəng yoxdur.** Nə alma qırmızı, nə səma mavi, nə də ağaclar yaşıldır. Onlar, yalnız

elə qəbul etdiyimiz üçün elədirlər. **"Xarici dünya", tamamilə qəbul edənə bağlıdır.**

Necə ki, gözdəki retinada əmələ gələn kiçik bir pozuqluq rəng korluğuna səbəb olar. Kimi insan mavini yaşıl, kimisi qırmızını mavi, kimisi də rəngləri bozun müxtəlif tonları şəklində görər(duyar). Bu nöqtədən sonra çöldəki obyektin rəngli olub olmaması əhəmiyyətli deyil.

Məşhur fikir adamı Berkeley də bu həqiqətə bu sözləriylə diqqət çəkməkdədir:

**İlkin olaraq rənglərin, qoxuların və s. "həqiqətən var olduğu" sanıldı; amma daha sonra, bu növ görüşlər rədd edildi və görüldü ki, bunlar duyğularımız sayəsində vardır.**[19]

Nəticə olaraq; biz obyektləri onlar rəngli olduğuna, ya da çöldə maddi bir varlığa sahib olduqlarına görə rəngli görmərik. Çünki, **varlıqlara yüklədiyimiz bütün xüsusiyyətlər, "xarici dünyada" deyil, içimizdədir.**

Yaxşı o zaman "xarici dünya"da qalan nə olar?...

## "Xarici Dünya"nın Varlığı Şərtdirmi?

İndiyə qədər həmişə bir "xarici dünya"dan, bir də bizim gördüyümüz və beynimizdə yaranan hisslər dünyasından danışdıq. Amma "xarici dünya"ya heç bir zaman çata bilmədiyimizə görə, bu dünyanın həqiqətən var olduğunu necə bilə bilərik?

Əlbəttə ki, bilmərik. Əksinə, hər obyekt yalnız hisslərin bir cəmi olduğuna, hisslər də tək zehində var olduqlarına görə, bizim üçün var olan tək dünya yalnız hisslər dünyasıdır. Tanıdığımız tək dünya, zehinimizin içində olan, orada çəkilən, səsləndirilən və rəngləndirilən, qısacası zehinimizdə meydana gələn bir dünyadır və bizim varlığından əmin ola biləcəyimiz tək dünya da budur.

Beynimizdə seyr etdiyimiz hisslərin maddi qarşılıqları olduğunu isə əsla isbat edə bilmərik. Bu hisslər çox yaxşı "süni" bir qaynaqdan da gələ bilərlər.



**Süni olaraq meydana gətirilən siqnallar nəticəsində, beynimizdə əsli qədər real və gerçək olan bir dünya meydana gələ bilər. Əgər təkmilləşdirilmiş bir kompüterin yardımıyla beynimizə siqnallar göndərə bilsəydik o zaman xarici dünyanın varlığına ehtiyyac olmadan müxtəlif hadisələri yaşaya bilərdik. Məsələn təyyarə sürə bilərdik...**

Bunu belə bir örnəklə zehinimizdə canlandıra bilərik:

Əvvəl, beyninizi bədəninizin xaricinə çıxarıb, şüşə bir qabın içində süni olaraq yaşatdığımızı düşünək. Bir də bunun yanına, hər cür elektrik siqnalının çıxarıla bildiyi bir kompüter yerləşdirək. Sonra, hər hansı bir mühitə aid görünüş, səs, qoxu kimi məlumatların elektrik siqnallarını süni olaraq bu kompüterdə çıxaraq və yazaq. Bu kompüteri elektrik kabelləri ilə beyninizdəki qəbul mərkəzlərinə bağlayaq və burada qeydli olan siqnalları beyninizə göndərək. Bu siqnalları qəbul etdikcə beyniniz (bir başqa deyimlə "siz"), bunların qarşılığı olan mühiti görəcək və yaşayacaq.

Bu kompüterdən beyninizə, öz görünüşünüzə aid elektrik siqnalları da göndərə bilərik. Məsələn, bir masada oturarkən qəbul etdiyiniz bütün görmə, eşitmə, toxunma kimi duyğuların elektrik şəklindəki qarşılıqlarını beyninizə göndərdiyimizdə, beyniniz özünü bürosunda oturmaqda olan bir iş adamı sanacaq. Kompüterdən gələn məlumatlar davam etdikcə də bu xəyali dünya davam edəcək. Yalnız bir beyindən ibarət olduğunu isə heç bir şəkildə anlaya bilməyəcək. Çünki beynin içində bir dünya meydana gəlməsi üçün beyindəki əlaqədar mərkəzlərə lazımlı məlumatların çatması kifayətdir. Bu xəbərdarlıqlar süni bir qaynaqdan, məsələn bir qeyd cihazından ya da daha fərqli bir qəbul qaynağından gələ bilər.

Məşhur elm fəlsəfəçisi Bertrand Russell bu mövzuda bunları söyləyir:

**... Barmaqlarımızla masaya vurduğumuz zamanki toxunma duyğusuna gəlincə, bu barmaq uclarındakı elektron və protonlar üzərində bir elektrik təsiridir. Müasir fizikaya görə, bu masadakı elektron və protonların yaxınlığından meydana gəlmişdir. Əgər barmaq uclarımızdakı eyni təsir, bir başqa yolla ortaya çıxmış olsaydı, heç masa olmamasına baxmayaraq eyni şeyi hiss edəcəkdik.**[20]

Görüldüyü kimi maddi qarşılıqları olmayan hissləri həqiqət sanaraq aldanmamız çox asandır. Necə ki bu həqiqəti yuxularımızda tez-tez yaşayarıq. Yuxuda tamamilə həqiqət kimi dayanan hadisələr yaşayar, insanlar, obyektlər, mühitlər görərik. Amma hamısı bir qəbuldan başqa bir şey deyil. Yuxu ilə "həqiqət dünya" arasında isə təməl bir fərq yoxdur; hər ikisi də zehində yaşanar.

## Hiss Edən Kimdir?

Bura qədər aydın olacağı kimi, içində yaşadığımızı sandığımız və "xarici dünya" adını verdiyimiz maddi dünyanın əslində beynimizdə meydana gəldiyinə şübhə yoxdur. Amma əsl əhəmiyyətli sual burada ortaya çıxır: Bildiyimiz bütün maddi varlıqlar əslində bir duyğu isə, o halda beynimiz nədir? Beynimiz də qolumuz, qıçımız ya da başqa hər hansı bir obyekt kimi maddi dünyanın bir parçası olduğuna görə, o da digər maddələr kimi bir duyğu olmalıdır.

Yuxu ilə əlaqədar bir nümunə mövzunu daha yaxşı açıqlayacaq. İndiyə qədər olan izahatımıza uyğun olaraq beynimizin içində bir yuxu seyr etdiyimizi düşünək. Yuxuda xəyali bir bədənimiz olacaq. Xəyali bir qolumuz, xəyali bir gövdəmiz, xəyali bir gözümüz və də xəyali bir beynimiz. Yuxu əsnasında bizə "harada görürsən?" kimi bir sual gəlsə verəcəyimiz cavab "beynimdə görürəm" olacaq. Amma ortada həqiqət bir beyin yoxdur. Yalnız xəyali bir bədən, xəyali bir kəllə və xəyali bir beyin vardır. Yuxunuzdakı görünüşü görən iradə isə, yuxudakı xəyali beyin deyil, ondan daha "kənarda" olan bir varlıqdır.

Yuxudakı mühitlə real həyat dediyimiz mühit arasında hər hansı bir fiziki fərq olmadığını bilirik. Elə isə, bizə real həyat dediyimiz mühitdə, “harada görürsən?” sualı soruşulduğunda da üstdəki nümunədəki kimi “beynimdə” cavabını vermənin bir mənası yoxdur. Hər iki vəziyyətdə də görən və duyan iradə, bir ət parçası xüsusiyyətindəki beyin deyil.

Beyni analiz etdiyimizdə qarşımıza, digər canlı orqanlarda da olan zülal və yağ molekullarından daha fərqli bir vəsait çıxmaz. Yəni beyin dediyimiz ət parçasında, görünüşləri seyr edərək şərh edəcək, şüuru meydana gətirəcək, qısacası “mən” dediyimiz şeyi yarada biləcək bir şey yoxdur.

R. L. Gregory beynin içində görünüşün qəbul edilməsi ilə əlaqədar insanların düşdükləri bir yanılmanı belə dilə gətirməkdədir:

**Gözlərin beyində şəkillər meydana gətirdiyini söyləməyə istiqamətli bir meyl söz mövzusudur, lakin bundan qaçınmaq lazımdır. Beyində bir şəkil meydana gəldiyi söylənsə bunu görməsi üçün içdə bir göz daha olması lazımdır -lakin bu gözün şəkilini görə bilmək üçün bir gözə daha ehtiyac olacaq,... və bu da sonsuz bir göz və şəkil olması mənasını verər. Bu mümkün ola bilməz.[21]**

Maddədən başqa bir varlığı qəbul etməyən materialistlərin içindən çıxa bilmədikləri əsl nöqtə burasıdır: Görən, gördüyünü qəbul edən və reaksiya verən “içdəki göz” kimə aiddir?



Beyin protein və yağ molekulalarından əmələ gələn bir hüceyrələr bütünüdür. Neyron (yuxarıda sağda) adı verilən sinir hüceyrələrindən ibarətdir. Şüuru əmələ gətirən əlbətdə ki, neyronlar deyildir. Neyronların tərkibinə baxdıqda isə qarşımıza çıxan atomlardır (yuxarıda solda). Şübhəsiz ki, şüursuz atomların da şüuru meydana gətirməsi mümkün deyildir. Beyin dediyimiz ət parçasında görüntüləri izləyəcək, şüuru meydana gətirə biləcək, qısası "mən" dediyimiz şeyi yarada biləcək bir güc yoxdur.

Karl Pribram da elm və fəlsəfə dünyasında, beynin şərhini hiss edənin kim olduğu ilə əlaqədar bu əhəmiyyətli axtarışa diqqət çəkmişdir:

**Yunanlılardan bəri, filosoflar "maşının içindəki xəyalət", "kiçik insanın içindəki kiçik insan", vs. üzərinə düşünüb dayanmışdırlar. Mən -beyni istifadə edən varlıq- haradadır? Əsl bilməyi reallaşdıran kimdir? Assisili Əziz Francisin də söyləmiş olduğu kimi: "Axtardığımız şey baxanın nə olduğudur."[22]**

İndi bunu düşünün: Əlinizdəki kitab, içində oturduğunuz otaq, qısaca önünüzdəki bütün görünüşlər beyninizin içində görülməkdədir. Yaxşı bu görünüşləri atomlarmı görür? Həm də kor, kar, şüursuz atomlar... Niyə atomların bir qisimi bu xüsusiyyətləri qazanmış da, digərləri qazana bilməmişdir?... Düşünməmiz, qavramamız, xatırlamamız, sevinməmiz, kədərlənməmiz, bütün bunlar bu atomların arasındakı kimyəvi reaksiyalardanmı ibarətdir?

Bu sualları diqqətlə düşündüyümüzdə, atomlarda iradə axtarışının bir mənasının olmadığını görərik. Açıqdır ki, görən, eşidən və hiss edən varlıq, maddə kənarında bir varlıqdır. Yaxşı bu görünüşləri beyninizin içində görən kimdir? Beyninizin içində, bir gözə ehtiyac duymadan bu kitabın görüntüsünü görən, gördüklərini anlayan, oxuduqlarından təsirlənən, bunlar üzərində düşünən kimdir? Beyinə çatan elektrik siqnallarını bir qulağa ehtiyac duymadan, bir dostunun səsi və ya ən sevdiyi mahnı olaraq dinləyən, dinlədiklərindən zövq alan kimdir?

**Bax bu varlıq "ruh"dur.**

"Maddi dünya" dediyimiz hisslər bütünü, bax bu ruh tərəfindən seyr edilən bir xəyaldır. Necə yuxumuzda sahib olduğumuz bədənimizin və yuxumuzda gördüyümüz maddi dünyanın bir həqiqəti yoxdursa, içində yaşadığımız kainatın və sahib olduğumuz bədənin də maddi bir həqiqətinin olub olmadığını əsla bilmərik.

Bizim maddə hesab etdiyimiz hər şey, yalnız ruhun gördüyü hisslərdən ibarətdir. Bu sətirləri yazan və oxuyan ağıllı varlıqlar, bir atom və molekul yığını –və bunların arasındakı kimyəvi reaksiyalar– deyil, bir "ruh"dur.

## Həqiqi Mütləq Varlıq

Bütün bu həqiqətlər, bizi çox əhəmiyyətli bir sualla daha qarşı-qarşıya gətirir: Madam ki, maddi dünya olaraq tanıdığımız şey əslində ruhumuzun gördüyü hisslərdən ibarətdir, o halda bu hisslərin qaynağı nədir?...

Bu suala cavab verərkən diqqət yetirilməsi lazım olan həqiqət budur; maddənin öz başına müstəqil bir varlığı yoxdur. Maddə bir duyğu(hiss) olduğuna görə, "süni" bir şeydir. Yəni bu duyğunun bir başqa güc tərəfindən düzəldilməsi, daha açıq bir ifadəylə yaradılması lazımdır. Həm də davamlı olaraq. Bu, bir televiziya ekranında görünüşün davam edə bilməsi üçün, yayımın da sürəkli davam etməsi kimidir.

Yaxşı bizim ruhumuza ulduzları, dünyanı, bitkiləri, insanları, bədənimizi və gördüyümüz digər hər şeyi davamlı olaraq seyr etdirən kimdir?

Çox açıqdır ki, içində yaşadığımız bütün maddi kainatı, yəni hisslər bütününü yaradan və davamlı yaratmağa davam edən üstün bir Yaradıcı vardır. Bu Yaradıcı sonsuz bir güc və elm sahibidir.

O Yaradıcı aləmlərin Rəbbi olan Allahdır.

Göylərin və yerin, yəni kainatın sabit və qərarlı olmadığı, yalnız Allahın yaratmağıyla varlıq tapdıqları və O, yaratmağı dayandırdığında yox olacaqları bir ayədə belə ifadə edilir:

**Həqiqətən, Allah göyləri və yeri zaval tapmasınlar (öz mehvərindən çıxmasınlar) deyə,(hər an) tutub saxlayır, Allahdan başqa onları heç kəs tutub saxlaya bilməz. Doğrudan da, Allah həlim və bağışlayandır!(Bəndələrinə cəza verməkdə tələsməz, tövbə edənləri əfv edər). (Fatir surəsi, 41)**

Daha əvvəl də ifadə etdiyimiz kimi, insanların çoxu, Allahın gücünü qavraya bilmədiklərindən, Onu göylərdə bir yerlərdə olan və dünya işlərinə müdaxilə etməyən bir varlıq olaraq düşünürlər. Bu məntiqin təməli, kainatın bir maddələr bütünü olduğu, Allahın isə bu maddələrin "xaricində" bir yerlərdə olduğu şəklindədir.

Halbuki, indiyə qədər araşdırdığımız kimi, maddə bir duyğudan ibarətdir. Həqiqi mütləq varlıq isə Allahdır. **Yəni var olan yalnız Allahdır, Ondan başqa hər şey Allahın yaratdığı görüntü varlıqlardır.** Belə olduqda da, Allahın maddə birliyinin "xaricində" olması kimi bir şey söz mövzusu ola bilməz. **Allah "hər yerdə"dir və hər yeri örtməkdədir.** Bu həqiqət Quranda belə açıqlanar:

**Allahdan başqa tanrı yoxdur. (Zatı və kəmal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) əbədi və əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər(onu yuxulama və mürgüləmə tutmaz). Göylərdə və yerdə nə varsa hamısı Onundur. Allahın izni olmadan Onun yanında kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir (Onun üçün heç bir şey gizli deyil). Onlar (yaranmışlar) Allahın elmindən Onun özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca və ən böyük varlıq da Odur. (Bəqərə surəsi, 255)**

Allahın məkandan münəzzəh olduğu və hər yeri ətraflı əhatə etdiyi həqiqəti bir başqa ayədə də belə ifadə edilməkdədir:

**Şərq də, Qərb də Allahındır: Hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allah ordadır. Şübhəsiz ki, Allahın mərhəməti genişdir və o, hər şeyi biləndir! (Bəqərə surəsi, 115)**

Maddi varlıqlar bir duyğu olduqlarına görə Allahı görə bilməzlər, amma Allah, öz yaratdığı maddəni hər şəkliylə görər. Quranda **"Gözlər onu dərk etməz. O, gözləri dərk edər. O, lətifdir və hər şeydən xəbərdardır."** (Ənam surəsi, 103) deyilərək bu həqiqət xəbər verilməkdədir.

Yəni biz Allahın varlığını gözlərimizlə duya bilmərik. Amma Allah bizim daxilimizi, xaricimizi, baxışlarımızı, düşüncələrimizi tam olaraq əhatə

etmişdir. Ondan xəbərsiz biz tək bir söz belə söyləyə bilmərik, hətta tək bir nəfəs belə ala bilmərik.

"Xarici dünya" sandığımız hissləri seyr edərkən, yəni həyatımıza davam edərkən də, bizə ən yaxın olan varlıq, hər hansı bir duyğu deyil, Allahın Özüdür. Quranda yerləşən **"And olsun, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq"** (Qaf surəsi, 16) ayəsinin sirri də bu əslində gizlidir. Bir insan öz bədəninin "maddə"dən meydana gəldiyini zənn etdiyində bu əhəmiyyətli həqiqəti qavraya bilməz.

Çünki məsələn "özü" zənn etdiyi yer beynidirsə, çölü olaraq qəbul etdiyi yer özünə 20-30 sm kimi müəyyən bir uzaqlıqda olar. Amma maddə deyə bir şeyin var olmadığını, hər şeyin xəyal olduğunu qavradığında, artıq çölü, içərisi, uzaq, yaxın kimi anlayışlar mənasızlaşar. **Allah onu ətraflı əhatə etmişdir və ona "sonsuz yaxın"dır.**

Allah insanlara **"sonsuz yaxın"** olduğunu, **"Bəndələrim məni səndən soruşduqda söylə ki, Mən onlara çox yaxınam..."** (Bəqərə surəsi, 186) ayəsi ilə də bildirir Bir başqa ayədə keçən, **"...Rəbbin (öz elmi və qüdrəti ilə) insanları ehtiva (ətraflı əhatə) etmişdir"** (İsra surəsi, 60) ifadəsi də yenə eyni həqiqəti xəbər verər.

İnsan özünə ən yaxın olan varlığın yenə özü olduğunu sanaraq yanılar. Halbuki Allah bizə, özümüzdən belə daha yaxındır. **"Can boğaza yetişdiyi (birinin ölümü gəlib çatdığı) zaman siz ona baxıb durursunuz (əlinizdən heç bir şey gəlmir). Biz ona sizdən daha yaxınıq amma siz (bunu) görmürsünüz!"** ( Vaqiə surəsi, 83-85) ayəsiylə də bu həqiqətə diqqət çəkmişdir. Ancaq ayədə də bildirildiyi kimi insanlar gözləriylə görmədikləri üçün bu fövqəladə əslindən xəbərsiz yaşayırlar.

Başqa yandan, bir görüntüdən başqa bir şey olmayan insanın, Allahdan asılı olmayan bir güc və iradəyə sahib olması da mümkün deyil. Necə ki " **Halbuki sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır"** (Saffat surəsi, 96) ayəsi yaşadığımız bütün hadisələrin Allahın idarəsi altında reallaşdığını göstərir. Quranda bu həqiqət bildirilməkdə və **"... atdığın zaman sən atmadın, Allah atdı..."** (Ənfal surəsi, 17) ayəsiylə, hər bir hərəkətin Allahdan asılı olduğu vurğulanmaqdadır.

İnsan kölgə varlıq olduğu üçün atma hərəkətini edən özü ola bilməz. Ancaq Allah bu kölgə varlığa özünün atdığı hissini verməkdədir. Əslində isə bütün hərəkətləri reallaşdıran Allahdır. Bu vəziyyətdə adamın etdiyi işləri özünə aid hərəkətlər olaraq qəbul etməsi, açıqca özünü aldatmasıdır.

Həqiqət budur. Bir insan bunu qəbul etmək istəməyə bilər, özünü Allahdan müstəqil bir varlıq sanmağa davam edə bilər, amma bu heç bir şeyi dəyişdirməz.

## Sahib olduğumuz Hər şey Əslində Xəyaldır...

Açıqca görüldüyü kimi, gördüyümüz görüntülərin maddi bir həqiqətə sahib olmadığı, Allahın davamlı ruhumuza göstərdiyi görüntülər bütünü olduğu elmi və məntiqi bir həqiqətdir. Nə var ki, insanlar ümumiyyətlə "xarici dünya" anlayışının içinə hər şeyi daxil etməzlər, ya da etmək istəməzlər.

Bu mövzuda bir az səmimi və cəsur düşünəcək olsanız, evinizin, içindəki əşyalarınızın və ya antikvar əşyalarınızın, bağ evinizin, yeni aldığınız avtomobilinizin, ofisinizin, ləl-cəvahiratlarınızın, bankdakı hesabınızın, qarderobunuzun, yoldaşınızın, uşaqlarınızın, iş yoldaşlarınızın və sahib olduğunuz digər şeylərin də sizə göstərilən bu "xəyali xarici dünya"ya daxil olduğu həqiqətinin fərqinə vararsınız.

Ətrafınızda gördüyünüz, eşitdiyiniz, iylədiyiniz qısacası beş duyğunuzla qəbul etdiyiniz hər şey bu "xəyali dünya"ya aiddir; ən sevdiyiniz sənətçinin səsi, oturduğunuz stulun sərtliyi, qoxusu xoşunuza gələn bir ətir, sizi istilədən günəş, rəngləriylə göz oxşayan bir çiçək, pəncərənizin xaricində uçan bir quş, dənizin üzərində sürətlə irəliləyən sürət mühərriki, bol məhsul verən bağçanız, işinizdə istifadə etdiyiniz kompüter ya da dünyadakı ən keyfiyyətli texnologiyaya sahib musiqi setiniz...

Həqiqət budur, çünki dünya yalnız insanı sınamaq üçün yaradılan bir görüntülər bütünüdür. İnsanlar qısa həyatları boyunca, əslinə heç bir zaman çata bilməyəcəkləri hisslərlə sınanarlar. Bu hisslər isə, xüsusilə bəzəkli və cazibədar göstərilər. Bu həqiqət, Quranda belə xəbər verilməkdədir:

**Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir.Lakin bütün bunlar dünya həyatının zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır. (Ali-İmran surəsi, 14)**

İnsanların çoxu sahib olduqları ya da olmağa çalışdıqları malların, pulların, yığdıqları qızılların, gümüşlərin, dollarların, ləl-cəvahiratların, daşıdıqları hesab pulqabılarının, kredit kartlarının, istifadə etdikləri şkaflar dolusu paltarların, son model avtomobillərin, qısacası hər cür zənginliyin sehri ilə dinlərini bir kənara buraxar, axirəti unudar və yalnız dünyaya yönələrlər.

"İşim var", "ideallarım var", "məsuliyyətlərim var", "vaxtım məhduddur", "yetişdirməm lazım olan işlər var", "irəlidə edəcəyəm" deyərək, dünyanın "bəzəkli və cazibədar" üzünə aldanaraq namaz qılmaz, mallarını kasıblara verməz, axirətdə qazanc təmin edəcəkləri ibadətlərə yönəlməzlər. Əksinə yalnız dünyada qazanc təmin etməyə çalışaraq ömürlərini istehlak edərlər. **"Onlar, dünya həyatının zahirini (xaricdə olanını) bilərlər, axirətdən isə xəbərsizdirlər"** (Rum surəsi, 7) ayəsində tam olaraq bu yanılma təsvir edilir.

Kitabın bu hissəsində izah etdiyimiz həqiqət, yəni hər şeyin bir görünüş olduğu həqiqəti isə, bütün bu ehtirasları və bağlılıqları mənasızlaşdırması baxımından çox əhəmiyyətlidir. Çünki bu həqiqətin başa düşülməsi, insanların sahib olduqları və olmağa çalışdıqları hər şeyin, ehtirasla sahib olduqları mülklərinin, varlıqlarıyla öyündükləri uşaqlarının, özlərinə ən yaxın sandıqları yoldaşlarının, dostlarının, ən sevdikləri bədənlərinin, bir üstünlük olaraq gördükləri mövqelərinin, oxuduqları məktəblərin, keçirdikləri tətillərin bir xəyaldan ibarət olduğunu göstərməkdədir. Bu vəziyyətdə bunlar adına edilən ehtiraslar, keçirilən zamanlar, xərclənən səylər də boşunadır.

O halda bəzi insanlar sahib olduqları mal və mülkləriylə, "yaxtalarıyla, vertolyotlarıyla, fabrikləriylə, holdinqləriylə, köşkləriylə, əraziləriylə" sanki bunlar həqiqətən varmış kimi öyündükləri zaman kiçik düşməkdədirlər. Yaxtalarında "qürurlanaraq" gəzən zənginlər, yoldaşlarına avtomobilləriylə göstəriş edənlər, zənginliklərini hər fürsətdə dilə gətirənlər, mövqelərinin özlərini hər kəsdən üstün etdiyini zənn edənlər, bunlarla göstəriş etdiklərini sananlar, əslində bir xəyal ilə göstəriş etdiklərini anladıqlarında nə vəziyyətə düşəcəklərini bilməlidirlər.

Bunların bənzərlərini yuxularında da tez-tez görərlər. Yuxularında da evləri, çox sürətli avtomobilləri, son dərəcə qiymətli ləl-cəvahiratları, topa-topa dollarları, yığın-yığın qızıl və gümüşləri vardır. Yuxularında da yüksək bir mövqedə olarlar, minlərlə adamın işlədiyi fabrikləri olar, bir çox insana hökm edə biləcək bir gücləri olar, hər kəsin heyran qaldığı paltarlar geyərlər... Ancaq necə yuxuda sahib olduqları ilə öyünmək onları komik vəziyyətə salırsa, eyni şəkildə bu dünyada əlaqədə olduqları görüntü ilə öyünmək də buna ekvivalentdir. Yuxularında gördükləri də, bu dünyada əlaqədə olduqları da nəticədə zehinlərindəki bir görüntüdən ibarətdir.

Bunun kimi dünyada yaşadıqları hadisələrə göstərdikləri reaksiyalar da, həqiqəti anladıqlarında insanları utandıracaq. Özünü itirmiş şəkildə döyüşənlər, qışqırıb çağıranlar, fırıldaqçılıq edənlər, rüşvət alanlar, saxtakarlıq edənlər, yalan danışanlar, xəsislik edənlər, insanları incidənlər, onları döyüb söyənlər, gözü dönmüş təcavüzkarlar, içləri vəzifə ehtirası ilə dolu olanlar, həsəd edənlər, göstəriş etməyə çalışanlar, özlərini ucaltmaq üçün çalışanlar və digərləri, bir xəyal içində bunları etdiklərini fərq etdiklərində rəzil olacaqlar.

Bilinməlidir ki, "dünya" dediyimiz görüntüləri yaradan Allah olduğuna görə, bu dünyadakı bütün malın həqiqi sahibi də yalnız Allahdır. Necə ki bu həqiqət Quranda xüsusilə vurğulanar:

**Göylərdə və yerdə nə varsa, hamısı Allaha məxsusdur. Allah hər şeyi (elmi və qüdrəti ilə) ehtiva etmişdir. (Nisa surəsi, 126)**

Əsli xəyal olan ehtiraslar üçün dini bir kənara buraxmaq və bunun nəticəsində sonsuz həyatı itirmək isə, çox böyük bir ağılsızlıqdır. Bundan əlavə insana sonsuz itki gətirər.

Bu mövzuda bu nöqtə çox yaxşı başa düşülməlidir: Qarşı-qarşıya olduğumuz həqiqət, "bütün bu sahib olduğunuz və ehtirasında olduğumuz mallar, zənginliklər, uşaqlar, yoldaşlar, dostlar, vəzifələr irəlidə yox olacaq, ona görə bir mənası yoxdur" deməməkdədir. "Bu sahib olduqlarınızın heç biri bu anda onsuz da yoxdur, hamısı yalnız bir xəyaldan ibarət olan, Allahın sizi sınamaq üçün göstərdiyi bir görünüşdür, bunların çöldə əslləri varmı yoxmu bunu da bilə bilməzsiniz, varsa belə əsillərinə əsla çata bilməzsiniz" deməkdədir. Diqqət yetirsəniz ikisi arasında çox böyük bir fərq vardır.

İnsan bu həqiqəti bu an qəbul etmək istəməsə və bütün sahib olduqlarını var qəbul edərək özünü aldatsa belə, nəticədə ölümünün ardından yenidən dirildiyində, yəni axirətdə, hər şey çox dəqiq ortaya çıxacaq. O gün insanın görüş gücü itiləşəcək (**“...Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən.”** Qaf surəsi, 22) və hər şeyin çox daha açıq fərqinə varacaq. Amma əgər dünyadakı həyatını xəyali məqsədlər arxasında qaçaraq xərcləmişsə, orada heç yaşamamış olmağı diləyəcək, **“Kaş ölüm əbədi (qəti) olaydı (bir daha dirilib bu əzabı görməyəydim). Mal dövlətim mənə heç bir fayda vermədi (Allahın əzabını məndən dəf edə bilmədi). Mülküm, səltənətim də məhf olub getdi!”** (Haqqə surəsi, 27-29) deyərək həlak olacaq.

Ağıllı bir insana düşən isə, bütün kainatın bu ən böyük həqiqətini zaman varkən burada qavramağa çalışmaqdır. Əks halda bütün ömürünü xəyallar arxasında qaçmağa xərcləyib sonunda böyük bir hüsrana uğrayar. Allah, dünyada xəyallar (ya da “ilğımlar”) arxasında qaçıb öz Yaradıcısını unudan bu insanların son vəziyyətlərini belə bildirməkdədir:

**Kafirlərin əməlləri ucsuz-bucaqsız çöldəki (səhradakı) ilğıma bənzər ki, susuzluqdan ürəyi yanan onu su bilər. Nəhayət gəlib ona yetişdiyi zaman onun heç nə olduğunu görər. O öz əməlinin yanında ancaq Allahın cəzasını tapar. Allah da onun (layiqincə) cəzasını verər. Allah tezliklə haqq-hesab çəkəndir. (Nur surəsi, 39)**

## Materialistlərin Məntiq Pozğunluqları

Bu hissənin başından etibarən maddənin, materialistlərin iddia etdikləri kimi mütləq bir varlıq olmadığı, əksinə Allahın yaratdığı bir hisslər bütünündən ibarət olduğu elmi olaraq ortaya qoyuldu. Materialistlər isə, bütün fəlsəfələrini yox edən bu açıq həqiqətə qarşı son dərəcə doqmatiq bir tutumla müqavimət göstərməkdədirlər və etibarsız qarşı məntiqlər gətirməkdədirlər.

Məsələn materialist fəlsəfənin XX əsrdəki ən böyük müdafiəçilərindən biri olan qatı Marksist **Corc Politzer,** maddənin varlığının “böyük dəlili” olaraq **“avtobus nümunəsi”**ni vermişdir. Politzerə görə, maddənin bir hiss olduğunu

müdafiə edən mütəfəkkirlər də şosedə avtobus gördükləri zaman əzilməmək üçün qaçmaqdadırlar və bu maddənin obyektiv varlığının isbatıdır.[23]

Bir başqa məşhur materialist Johnson isə özünə maddənin bir hisslər bütünü olduğu izah edildiyində, daşlara təpik ataraq onların fiziki varlıqlarını "sübut etməyə" çalışmışdır.[24]

Bənzər bir nümunə, Politzerin ağıl müəllimi və dialektik materializmin Marksla birlikdə qurucusu olan **Friedrich Engels** tərəfindən verilmişdir, Engels, ***"əgər yediyimiz tortlar bir hiss olsaydı, aclığımızı keçirməzdilər"*** deyə yazmışdır.[25]

Marks, Engels, Lenin kimi məşhur materialistlərin kitablarında həmişə bu cür nümunələr və *"maddənin varlığını yumruğa məruz qalanda anlarsınız"* kimi hirs dolu cümlələr yerləşməkdədir.

Materialistlərin bütün bu nümunələri vermələrinə səbəb olan qavrayış pozuqluğu isə, "maddə bir hissdir" şərhini, "maddə bir işıq oyunudur" şəklində anlamalarıdır. Hiss anlayışının yalnız görməklə məhdud olduğunu, toxunma kimi hisslərin isə obyektiv qarşılığı olduğunu sanmaqdadırlar. Avtobusun insana çarpması üzərinə də, "baxın çarpır, demək ki, bir hiss deyil" deməkdədirlər. Anlamaqda çətinlik çəkdikləri nöqtə, avtobus çarpması əsnasında yaşanan sərtlik, zərbə və ağrı kimi bütün hisslərin də yalnız zehində meydana gəldikləridir.

## Yuxu Nümunəsi

Bu həqiqəti ən yaxşı izah edən nümunə yuxulardır. İnsan, yuxusunda çox həqiqi hadisələr yaşaya bilməkdədir. Nərdivandan diyirlənib qıçını qıra bilməkdə, ciddi bir yol qəzası keçirə bilməkdə, bir avtobusun altında qala bilməkdə, acıyanda bir tort yeyib doya bilməkdədir. Gündəlik həyatda rast gəlinən hadisələrin bənzərləri yuxuda da eyni inandırıcılıqla, eyni hisslərlə yaşanmaqdadır.

Yuxusunda özünə avtobus çarpdığını görən adam yenə yuxusunda, qəza etdikdən sonra gözünü xəstəxanada aça bilər; şikəst qaldığını anlar amma əslində bu bir yuxudur. Yenə yuxusunda; bir yol qəzasının ardından öldüyünü, ölüm mələklərinin canını aldığını, axirət həyatının başladığını görə bilər. (Bu

hadisə, yuxu kimi bir qəbul olan həqiqət dünya həyatında da eyni şəkildə yaşanar.)

Yuxusunda yaşadığı bütün bu hadisələrin görünüşlərini, səslərini, sərtlik hissini, ağrını, işığı, rəngləri, hər cür hissi çox aydın bir şəkildə duymaqdadır. Yuxuda qarşılıqlı əlaqədə olduğu hisslərin bütünü həqiqət həyatdakı qədər təbiidir. Yuxusunda yediyi bir tort hisslərdən ibarət olmasına baxmayaraq qarınını doyurar. Çünki doymaq da bir hissdir.

Halbuki, əslində o anda adam yataqda uzanmış vəziyyətdədir. Ortada nə nərdivan, nə nəqliyyat, nə avtobus, nə tort var. Yuxudakı adam, xarici dünyada qarşılıqları olmayan qəbul və hissləri yaşamaqda və görməkdədir. Yuxuda, “xarici dünya”da heç bir maddi qarşılığı olmayan hadisələrin yaşana, görülə, hiss edilə bilən olması, “xarici dünya”nın tamamilə hisslərdən meydana gəldiyini çox dəqiq şəkildə ortaya qoymaqdadır.

Materialist fəlsəfəni mənimsəyənlər, xüsusilə də **Marksistlər**, özlərinə bu həqiqət, yəni maddənin əsli izah edildiyində hirslənməkdədirlər. **Marksın**, **Engelsin**, **Leninin** bu mövzudakı səthi və cahilcə məntiqlərindən nümunələr verməkdə, atəşli şərhlər etməkdədirlər.

Halbuki bu kəslər eyni şərhləri yuxularında da edə bildiklərini düşünməlidirlər: Yuxularında da “*Das Kapital”ı* oxumaqda, mitinqlərə qatılmaqda, polislə qarşıdurmaya girməkdədirlər, başlarına daş isabət etməkdə və hətta bu yaranın sızısını hiss etməkdədirlər. Yuxularında özlərinə soruşulduğunda, o an gördükləri şeyləri də “mütləq maddə” sanmaqdadırlar. Eynilə oyanıqkən gördükləri şeyləri də “mütləq maddə” sandıqları kimi. Amma, istər yuxuda olsun, istər gündəlik həyatda olsun, gördüklərinin, yaşadıqlarının, hiss etdiklərinin hamısı bir hissdir.

## Sinirləri Paralel Bağlama Nümunəsi

Politzerin yol qəzası nümunəsini ələ alaq: Bu qəzada, avtobusun altında əzilən adamın beş duyğu orqanından beyninə gedən sinirlər, bir başqa insanın, məsələn Corc Politzerin beyninə paralel bir əlaqəylə bağlansa, qəzadakı adama avtobus çarpdığı anda, o sırada evində oturmaqda olan Politzerə də avtobus çarpacaq. Daha doğrusu, qəzaya düşən

adamın yaşadığı hisslərin hamısını, bir musiqi teybine bağlanan iki ayrı kolondan eyni mahnının dinlənməsinə bənzər şəkildə, Politzer də yaşamağa başlayacaq. Politzer də evində oturduğu halda avtobusun əyləc səsini, avtobusun bədəninə dəyməsini, sınıq qol və axan qan görünüşlərini, sınıq ağrılarını, əməliyyatxanaya aparılışının görünüşlərini, gipsin sərtliyini, qolunun gücsüzlüyünü hiss edəcək, görəcək və yaşayacaq.

Qəzadakı adamın sinirləri neçə adama bağlansa bunların hamısı, eyni Politzer kimi, qəzanı başından sonuna qədər yaşayacaq. Qəzaya düşən adam komaya girsə, hamısı komaya girəcək. Hətta, söz mövzusu yol qəzasına aid hisslərin bütünü bir alətə yazılsa və bu hisslər davamlı başa alınaraq bir başqa adama verilsə, bu adama da dəfələrlə avtobus çarpacaq.

Yaxşı o halda, hansına çarpan avtobus həqiqidir? Materialist fəlsəfənin bu suala verə biləcəyi ziddiyyətsiz bir cavab yoxdur. Doğru cavab, yol qəzasını hamısının öz zehinlərində bütün detallarıyla yaşadığıdır.

Tort yemə və daşa təpik atma nümunələri üçün də vəziyyət eynidir. Tort yeyincə qarınında tortun şişliyini və toxluğunu hiss edən Engelsin duyğu orqanlarına aid sinirlər paralel olaraq ikinci bir adamın beyninə bağlansa, Engels tort yediyi və doyduğu anda o adam da tort yeyəcək və doyacaq. Daşa təpik atınca ayağı ağrıyan materialist Johnsonun sinirləri paralel olaraq bir başqa adama bağlansa, bu adam da daşa vuracaq və canı ağrıyacaq.

Yaxşı hansı tort və hansı daş həqiqidir? Materialist fəlsəfə, buna da ziddiyyətsiz bir cavab verə bilməz. Doğru və ziddiyyətsiz cavab budur: Həm Engels həm digər adam tortu öz zehinlərində yeyib doymuşlar. Həm Johnson həm ikinci adam, daşa təpik atış anını öz zehinlərində bütün detallarıyla yaşamışlar.

Yuxarıda Politzerlə əlaqədar olaraq verdiyimiz nümunədə belə bir dəyişiklik edək; evində oturan Politzerin sinirlərini avtobusun çarpdığı adamın beyninə, avtobusun çarpdığı adamın sinirlərini də Politzerin beyninə bağlayaq. Bu vəziyyətdə isə, Politzer əslində evində oturduğu halda özünə avtobus çarpdığını zənn edəcək, avtobusun çarpdığı adam isə qəzanın bütün şiddətinə baxmayaraq, bunu əsla fərq edə bilməyəcək, çünki özünün evdə oturduğunu düşünəcək. Bu məntiq tort yemə və daşa təpik atma nümunələri üçün də düşünülə bilər.

Görüldüyü kimi insanın hisslərini aşması və çölə çıxması mümkün deyil. Bu vəziyyətdə bir insanın ruhuna, bədəni və heç bir maddi varlığı olmadığı halda, ortada maddi bir mühit də olmamasına qarşı hər şey seyr etdirilə

biləcək. Belə ki adamın bunu anlaması mümkün deyil, hətta izlətdirilən üç ölçülü mükəmməl görünüşləri həqiqət zənn edib, varlığından da son dərəcə əmin olacaq. Çünki hər insan duyğu orqanlarına hiss etdirilən hisslərdən asılıdır.

İngilis fəlsəfəçi David Hume bu həqiqət üzərindəki düşüncələrini belə ifadə etmişdir:

**Çox səmimi olaraq, özüm dediyim şeyə daxil olduğum zaman mən isti ya da soyuğa, işıq ya da kölgəyə, eşq ya da nifrətə, ağrı ya da ləzzətə dair xüsusi bir hissə ya da başqa bir şeyə daim rast gəlirəm. Mən bir qəbul olmadan hər hansı bir zamanda özümü əsla tuta bilmərəm və əsla hissdən başqa bir şeyi müşahidə edə bilmərəm.**[26]

## Hisslərin Beyində Meydana gəldiyi Fəlsəfə Deyil, Elmi Həqiqətdir

Materialistlər, burada izah etdiklərimizin fəlsəfi bir görüş olduğunu iddia etməkdədirlər. Halbuki bizim "xarici dünya" dediyimiz şeyin bir hisslər bütünü olduğu, bir fəlsəfə deyil, elmi bir həqiqətdir. Görünüşün və hisslərin beyində necə meydana gəldiyi, bütün tibb fakültələrində detallı şəkildə oxudulmaqdadır. Başda müasir fizika olmaq üzrə XX əsr elminin ortaya qoyduğu həqiqətlər, maddənin konkret bir həqiqətə sahib olmadığını, hər kəsin bir mənada "beynindəki ekran"ı izlədiyini açıqca göstərməkdədir.

Bunu, istər ateist olsun, istər budist olsun, istər başqa bir görüşə ya da düşüncəyə sahib olsun, elmə inanan hər kəs qəbul etmək məcburiyyətindədir. Bir materialist özündə Allahın varlığını inkar edə bilər amma bu elmi həqiqəti inkar edə bilməz.

Yaşadıqları dövrlərin elm anlayışı və elmi imkanları qeyri-kafi də olsa, Karl Marks, Friedrich Engels, Georges Politzer və digərlərinin bu qədər asan və açıq bir həqiqəti qavraya bilməmələri, yenə də təəccüblüdür. Amma indiki

vaxtda elmin və texnologiyanın imkanları son dərəcə inkişaf etmişdir və bu imkanlar onsuz da çox açıq olan bu həqiqətin qavranmasını daha da asanlaşdırmaqdadır. Materialistlər isə, həm qismən də olsa bu mövzunu qavramanın, həm də bu mövzunun öz fəlsəfələrini nə qədər qəti bir şəkildə çökdürdüyünün fərqinə varmanın verdiyi böyük bir qorxu içindədirlər.

## Materialistlərin Böyük Qorxusu

Türkiyədəki materialist kütlə, bu mövzuya, yəni maddənin bir hiss olduğu həqiqətinə bir müddət üçün diqqətə çarpan bir reaksiya gəlmədi. Bu isə, bizdə, bu mövzunun kifayət qədər açıqlanmadığı və daha detallı bir izahata keçilməsi lazım olduğu istiqamətində bir təəssürat doğurmuşdu. Ancaq qısa bir müddət sonra materialistlərin əslində bu mövzunun gündəmə gətirilməsindən çox böyük bir narahatlıq duyduqları, hətta bundan böyük bir qorxuya qapıldıqları açıq bir şəkildə ortaya çıxdı.

Materialistlər yaşadıqları bu qorxu və çaxnaşmanı, bir müddətdir öz nəşr orqanlarında, konfranslarında, panellərində yüksək səslə ifadə edirlər. İstifadə etdikləri narahat və ümidsiz üsluba baxıldığında, ciddi bir fikri böhran içinə girdikləri aydın olur. Fəlsəfələrinin sözdə təməli olan təkamül nəzəriyyəsinin elmi istiqamətdən çökdürülməsi ilə onsuz da ciddi bir şok yaşamağa başlamışlardı. Ancaq, indi Darvinizmdən çox daha əhəmiyyətli bir dayaqlarını, şəxsən maddənin özünü itirməyə başladıqlarını anladılar və çox daha böyük bir şok içindədirlər. Bu mövzunun, özləri baxımından "ən böyük təhlükə" olduğundan, öz "mədəni toxumalarını tamamilə yıxdığından" danışırlar.


Materialist yazar Rennan Pekünlü " Təkamül nəzəriyyəsi önəmli deyil əsl təhlükəli olan bu mövzudur" deyir. Çünki bu mövzuyla birlikdə inandığı tək qavram olan maddənin mütləqliyi qavramının yalan olduğu ortaya çıxır...

Türkiyədəki materialist kütlənin yaşadıqları bu narahatlıq və çaxnaşmanı ən açıq şəkildə ifadə edənlərdən biri, materializmi müdafiə etməyi özünə vəzifə etmiş olan *Elm və Utopiya* jurnalının yazıçısı və eyni zamanda bir müəllim olan Rennan Pekünlü oldu. Pekünlü, gərək söz mövzusu jurnalda yazdığı yazılarda, gərəksə söz aldığı bəzi panellərdə, *"Təkamül Aldatmacası"* kitabını bir nömrəli "təhlükə" olaraq göstərdi. Pekünlü ən çox rahatsızlandıran

mövzu isə, kitabın Darvinizmi etibarsız edən hissələrinin də kənarında, əsl olaraq bu anda oxumaqda olduğunuz və "Təkamül Aldatmacası" adlı kitabda da olan qisim idi.

Oxucularına və (olduqca az saydakı) dinləyənlərinə "əsla özünüzü idealizmin bu təlqinlərinə qapdırmayın, materializmə olan sədaqətinizi qoruyun" mesajları verən Pekünlü, özünə dayaq olaraq Rusiyadakı qanlı kommunist inqilabının lideri Vladimir I. Lenini tapmışdı. Leninin bir əsr əvvəl yazdığı *Materializm və Ampiryokritisizm* adlı kitabı oxumağı hər kəsə nəsihət edən Pekünlünün etdiyi tək şey isə, yenə Leninə aid olan "əsla bu mövzunu düşünməyin, yoxsa materializmi itirərsiniz və özünüzü dinə qapdırarsınız" şəklindəki xəbərdarlıqları təkrarlamaq oldu. Pekünlü, söz mövzusu materialist nəşr orqanında yazdığı bir məqalədə, Lenindən bu sətirləri göstərdi:

**Duyğularımızla qəbul etdiyimiz obyektiv həqiqəti bir dəfə yadırğadınmı, şübhəçiliyə (agnostisizm) və öznəlciliyə (subyektivizmə) sürüşəcəyindən, fideizmə (dini inanca) qarşı istifadə edəcəyin bütün silahları itirərsən; bu da fideizmin istədiyi şeydir. Barmağını qapdırdınmı, əvvəl qolun sonra bütün mənliyin gedər. Duyğuları obyektiv dünyanın bir görünüşü olaraq deyil də, xüsusi bir element olaraq götürdüyündə, digər bir deyişlə materializmdən güzəştə getdiyində, mənliyini fideizme qapdırarsan. Sonra duyğular heç kimin duyğuları olar, ağıl heç kimin ağılı, ruh heç kimin ruhu, istək heç kimin istəyi olar.**[27]

Bu sətirlər, Leninin böyük bir qorxuyla fərq etdiyi və həm öz başından həm də "yoldaş"larının başlarından silmək istədiyi həqiqətinin, günümüzün materialistlərini də eyni şəkildə narahat etdiyini göstərməkdədir. Amma Pekünlü və digər materialistlər Lenindən daha da böyük bir narahatlıq içindədirlər; çünki bu həqiqətin bundan 100 il əvvəlkinə nisbətən çox daha açıq, qəti və güclü bir şəkildə ortaya qoyulduğunun fərqindədirlər. Bu mövzu, bütün dünya tarixində ilk dəfə bu qədər qarşı qoyula bilməz bir şəkildə izah edilməkdədir.

Amma yenə də bir çox materialist elm adamının "maddənin bir xəyaldan ibarət olduğu" həqiqətini son dərəcə səthi bir dünyagörüşüylə qiymətləndirdiyi aydın olmaqdadır. Çünki burada izah edilən mövzu bir insanın həyatında

qarşılaşa biləcəyi **ən əhəmiyyətli, ən həyəcan verici mövzu**lardan biridir. Bu dərəcə təəccüblü bir mövzu ilə daha əvvəl üz-üzə gəlmiş olmaları mümkün deyil. Buna baxmayaraq söz mövzusu elm adamlarının göstərdikləri reaksiyalar ya da danışma və yazılarındakı üslub, son dərəcə dayaz və səthi bir qavrayışa sahib olduqlarını açığa çıxarmaqdadır.

Belə ki bəzi materialistlərin burada izah edilənlərə göstərdikləri reaksiyalar, materializmə olan kor-koranə bağlılıqlarının onlarda bir növ məntiqi təxribat meydana gətirdiyini və bu səbəblə mövzunu anlamaqdan çox uzaq olduqlarını göstərmişdir. Məsələn yenə bir *Elm və Utopiya* yazıçısı və müəllim olan Alaettin Şenel, eyni Rennan Pekünlü kimi **"Darvinizmin çökdürülməsi bir tərəfə, əsl təhlükə bu mövzudur"** mesajları vermiş, öz fəlsəfəsinin bir dayağı olmadığını hiss etdiyi üçün də, "elə isə siz izah etdiklərinizi isbat edin" mənasını verən istəklər bildirmişdir. Ancaq əsl maraqlı nöqtə, söz mövzusu yazarın, təhlükə olaraq gördüyü həqiqəti heç cür qavraya bilmədiyini göstərən sətirlər yazmış olmasıdır.

Məsələn Şenel, tamamilə bu mövzunu ələ aldığı bir məqaləsində, xarici dünyanın beynin içində görünüş hesab edildiyini qəbul etmişdir. Amma görünüşlərin maddi qarşılığı olan və olmayan görüntülər olaraq ikiyə ayrıldığını söyləyərək, xarici dünya ilə əlaqədar görünüşlərin maddi qarşılığı olduğunu qarşıya qoymuşdur. Bu iddiasını dəstəkləmək üçün də bir "telefon nümunəsi" vermişdir. Qısaca, "beynimdəki görünüşlərin xarici dünyada qarşılığı olub olmadığını bilmirəm, amma eyni şey telefonla danışdığımda da etibarlıdır; telefonla danışarkən qarşımdakı adamı görə bilmirəm, lakin sonradan üz-üzə danışarkən bu danışmağı doğrulada bilərəm" deyə yazmışdır.[28]

Söz mövzusu yazar, bu bənzətmə ilə bunu nəzərdə tutmaqdadır: "Əgər hisslərimizdən şübhələnsək, maddənin əslinə baxıb həqiqəti idarə edə bilərik." Halbuki bu çox açıq bir yanılmadır, çünki bizim maddənin əslinə çatmamız qətiliklə mümkün deyil. **Heç bir zaman zehinimizin xaricinə çıxıb "çöldə" nə olduğunu bilmərik.** Telefondakı səsin qarşılığı olub olmadığı telefondakı adama təsdiqləndirilə bilər. Amma bu doğrulatma da tamamilə zehində yaşanan bir xəyaldan ibarətdir.

Necə ki, bu kəslər eyni hadisələri yuxularında da yaşayırlar. Məsələn, Şenel yuxusunda da telefonla danışdığını, ardından bunu danışdığı adama təsdiqlətdiyini görə bilər. Və ya Pekünlü yuxusunda da "böyük bir təhlükə"ylə qarşı-qarşıya olduğunu hiss edib, qarşısındakı insanlara Leninin əsrlik əsərlərini tövsiyə edə bilər. Amma, söz mövzusu materialistlər nə edirlərsə

etsinlər yaşadıqları hadisələrin, danışdıqları kəslərin bir qəbuldan ibarət olduğu həqiqətini inkar edə bilməzlər.

O halda **beyindəki görünüşlərin qarşılığı olub olmadığı kimə təsdiqləndiriləcəkdir?** Yenə beyində əmələ gələn kölgə varlıqlaramı? Şübhəsiz materialistlərin beynin xaricinə aid məlumat təmin edə biləcək, təsdiqləmə edə biləcək bir məlumat qaynağı tapması mümkün deyil.

Hər cür qəbulun beyində meydana gəldiyini qəbul etmək, amma istəndiyində bunun "xaricinə" çıxılıb hisslərin reallıqdan kənar dünyaya təsdiqləndirilə biləcəyini sanmaq isə, əslində bir insanın anlayış səviyyəsinin məhdud olduğunu, xarab bir məntiq hörgüsü içində düşündüyünü göstərər.

Halbuki burada izah edilən həqiqət, normal anlayış səviyyəsinə və məntiq hörgüsünə sahib bir insan tərəfindən dərhal rahatlıqla aydın ola biləcək bir mövzudur. Ön mühakiməsiz hər insan, bu izah edilənlər istiqamətində, xarici dünyanın varlığını duyğu orqanları vasitəsilə test edə bilməyəcəyini anlayar. Ancaq görüldüyü qədəriylə materializmə olan kor-koranə bağlılıq, insanların ağıl işlətmə qabiliyyətlərini pozmaqdadır. Buna görə günümüzdəki materialistlər də, maddənin varlığını daşlara təpik ataraq ya da tort yeyərək "isbat etməyə" çalışan başbilənləri kimi, ciddi məntiq pozğunluqları göstərməkdədirlər.

Bunun əslində çaşdırıcı bir vəziyyət də olmadığını ifadə etmək lazımdır. Çünki ağıl edə bilməmək, yəni dünyanı və hadisələri düz bir məntiq hörgüsü içində şərh edə bilməmək, inkarçıların ortaq xüsusiyyətidir. Allah, Quranda inkarçıların **"...anlamaz bir tayfa(birlik)..."** (Maidə surəsi, 58) olduqlarını xüsusilə ifadə etməkdədir.

## Materialistlər Tarixin Ən Böyük Tələsinə Düşmüşlər

Türkiyədəki materialist kütlədə baş göstərən və burada yalnız bir neçə əlamətinə toxunduğumuz çaxnaşma atmosferi, əslində materialistlərin tarix boyunca qarşılaşmadıqları qədər böyük bir məğlubiyyətlə üz-üzə olduqlarını göstərməkdədir. Maddənin bir hissdən

ibarət olduğu həqiqəti, müasir elm tərəfindən isbat edilmişdir və dahası çox açıq, qəti və güclü bir şəkildə ortaya qoyulmaqdadır. Materialistlər kor-koranə inandıqları, bel bağladıqları, güvəndikləri maddi dünyanın, içindəki hər şeylə birlikdə tamamilə yox olduğunu görməkdə və buna qarşı heç bir şey edə bilməməkdədirlər.

İnsanlıq tarixi boyunca materialist düşüncə həmişə var olub və bu kəslər özlərindən və müdafiə etdikləri fəlsəfədən çox əmin bir şəkildə, özlərini yaratmış olan Allaha baş qaldırıblar. Ortaya atdıqları ssenariyə görə maddə əzəli və əbədi idi və bütün bunların bir Yaradıcısı ola bilməzdi. Yalnız qürurlarından ötrü, Allahı rədd edərlərkən var zənn etdikləri maddənin ardına sığındılar. Bu fəlsəfədən elə əmindilər ki, heç bir zaman bunun əksini isbat edəcək bir şərh gətirilə bilməyəcəyini düşünürdülər.

Bax buna görə, maddənin əsli ilə əlaqədar olaraq bu kitabda izah edilən həqiqətlər bu kəsləri böyük bir qarışıqlığa salmışdır. Çünki burada izah edilənlər fəlsəfələrini təməldən yıxıb atmış, üzərində mübahisəyə belə imkan buraxmamışdır. Bütün düşüncələrini, həyatlarını, qürurlarını və inkarlarını üzərinə bina etdikləri maddə, əllərindən bir çırpıda uçub getmişdir. **Maddə yoxdur ki, materialism də olsun...**

Allahın bir sifəti, inkarçılara tələ qurmasıdır. Quranda **"... hiylə qururdular. Allah da (onların bu hiyləsinə qarşı) tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır."** (Ənfal surəsi, 30) ayəsiylə bu həqiqət bildirilər.

Bax Allah, maddəni var zənn etdirərək materialistləri tələyə salmış və tarixdə bənzəri görülməmiş şəkildə kiçiltmişdir. Mallarını, mülklərini, mövqelərini, ünvanlarını, içində olduqları cəmiyyəti, bütün dünyanı və əslində bir xəyaldan ibarət olan hər şeyi var sanmışlar, üstəlik bunlara güvənərək Allaha qarşı böyüklənmişlər. Lovğalanaraq Allaha üsyan etmiş və inkarda irəli getmişlər. Bunları edərkən də güc aldıqları tək şey maddə olmuşdur. Amma elə bir anlayış əskikliyi içinə düşmüşlər ki, Allahın özlərini ətraflı qucaqlayıb əhatə etdiyini heç düşünməmişlər. Allah inkarçıların anlayışsızlıqları nəticəsində düşəcəkləri vəziyyəti Quranda belə xəbər vermişdir:

**Yoxsa bir tələ qurmaq istəyirlər? Amma kafirlər özləri tələyə düşəcəklər. (Tur surəsi, 42)**

Bu, bəlkə də tarixin gördüyü ən böyük məğlubiyyətdir. Materialistlər özlərincə böyüklənərkən, əslində böyük bir oyuna gəlmişlər, Allaha qarşı çirkin bir cəsarət göstərərək açdıqları döyüşdə qəti olaraq məğlub olmuşlar.

**“Beləliklə, hər bir obanın günahkarlarını oranın başçıları təyin etdik ki, onlar orada bacardıqları qədər məkrlə məşğul olsunlar. Onlar yalnız özlərinə qarşı məkr edərlər, lakin fərqinə varmazlar.”** (Ənam surəsi, 123) ayəsi Yaradıcımıza baş qaldıran bu kimi inkarçıların necə bir şüursuzluq içində olduqlarını və necə bir sonla qarşılaşacaqlarını ən açıq şəkildə xəbər verir.

Bir başqa ayədə isə bu həqiqət belə vurğulanır:

**Onlar elə güman edirlər ki, Allahı və möminləri aldadırlar. Bilmirlər ki,(şüuruna çatmazlar ki) əslində özlərini aldadırlar.**

**(Bəqərə surəsi, 9)**

İnkarçılar özlərincə tələ qurmağa cəhd edərlərkən ayədəki “bilmirlər ki” (“şüuruna çatmazlar”) ifadəsiylə açıqlandığı kimi, çox əhəmiyyətli bir həqiqəti fərq edə bilməmişlər: Yaşadıqları bütün hadisələrin onlara hiss etdirilən bir xəyal olduğu və işlədikləri hər hərəkət kimi, qurduqları tələlərin də zehinlərində əmələ gələn bir görünüşdən ibarət olduğu həqiqətini... Bu qavrayışsızlıqları səbəbiylə də, Allah ilə tək olduqlarını unudaraq öz özlərini hiyləli bir tələyə salmışlar.

Hər dövrdə olduğu kimi bu dövrdə də Allah inkarçıların bütün hiyləli tələlərini təməlindən yıxacaq bir həqiqətlə onları üz-üzə gətirmişdir. Allah **“...Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir!”** (Nisa surəsi, 76) ayəsiylə, bu tələlərin daha ilk qurulduqları anda nəticələrinin hüsran olacağını da xəbər vermişdir. Və möminləri də **“onların hiyləsi sizə heç bir zərər yetirməz”** (Ali-İmran surəsi, 120) ayəsiylə müjdələmişdir.

Allah bir başqa ayəsində inkar edənlərin aldanışlarını belə bildirər:

**"Kafirlərin əməlləri ucsuz-bucaqsız çöldəki (səhradakı) ilğıma bənzər ki, susuzluqdan ürəyi yanan onu su bilər. Nəhayət gəlib ona yetişdiyi zaman onun heç nə olduğunu görər. O öz əməlinin yanında ancaq Allahın cəzasını tapar..." (Nur surəsi, 39)**

Materializm fəlsəfəsi də bu ayədə işarə edildiyi kimi, üsyan edənlər üçün bir “ilğım” meydana gətirər; ona güvənərək əllərini uzatdıqlarında, hər şeyin bir xəyaldan ibarət olduğunu anlayarlar. Allah onları belə bir ilğımla aldatmış, bütün bu hisslər bütününü var kimi göstərmişdir. “Böyük” insanlar, professorlar, astronomlar, bioloqlar, fiziklər, ünvanları, mövqeləri hər nə olursa olsun maddəni özlərinə ilah etmələri səbəbiylə bu oyuna gəlmişlər, bir uşaq kimi aldanmış və kiçik düşmüşlər.

Bir hisslər bütününü mütləq sanaraq onun üzərinə fəlsəfələrini, ideologiyalarını qurmuşlar, haqqında ciddi müzakirələrə girmişlər, sözdə “intellektual” izahatlar istifadə etmişlər. Bütün bunlardan ötəri də özlərini çox ağıllı saymışlar, kainatın həqiqəti haqqında fikir irəli sürə biləcəklərini düşünmüşlər və ən əhəmiyyətlisi öz məhdud ağılları ilə Allahı şərh edə biləcəklərini sanmışlar. Allah, onların içinə düşdükləri bu vəziyyəti bir ayəsində belə bildirər:

**Onlar hiyləyə əl atdılar. Allah da onların hiyləsinə qarşı əvəz verdi. Allah bütün hiyləgərlərdən tədbirlidir. (Ali İmran surəsi 54)**

Dünyada bəzi tələlərdən xilas olmaq mümkün ola bilər; ancaq Allahın inkar edənlərə qurduğu bu tələ elə möhkəmdir ki, əsla bir qurtuluş imkanları qalmamışdır. Nə edərlərsə etsinlər, kimə müraciət edirlərsə etsinlər, özlərini qurtaracaq, Allahdan başqa bir köməkçi tapmaları da mümkün deyil. Allahın Quranda xəbər verdiyi kimi, **“... Onlar özlərinə Allahdan savayı nə bir dost, nə də havadar tapacaqlar!”** (Nisa surəsi, 173)

Materialistlər belə bir tələyə düşəcəklərini heç gözləmirdilər. XX əsrin bütün imkanları əllərindəykən rahatca inkarda dirəşə biləcəklərini və insanları da inkara sürüyə biləcəklərini sanırdılar. Allah inkarçıların tarix boyunca daşıdıqları bu zehniyyəti və uğradıqları sonu Quranda belə xəbər vermişdir:

**Onlar bir hiylə qurdular. Biz isə özləri də bilmədən (anlamadan) hiylələrinin cəzasını verdik. Bir gör onların hiylələrinin axırı necə oldu. Biz onların özlərini də, tayfalarını (birliklərini) da büsbütün yox etdik. (Nəml surəsi, 50-51)**

Ayələrdə izah edilən həqiqətin bir mənası da budur: Materialistlərə sahib olduqları hər şeyin bir xəyaldan ibarət olduğu açıqlanmış, yəni **əllərindəki hər şey topluca yox edilmişdir.** Və onlar, var zənn etdikləri mallarının, fabriklərinin, qızıllarının, dollarlarının, uşaqlarının, yoldaşlarının, dostlarının, vəzifələrinin, hətta öz bədənlərinin əllərinin arasından itib getdiyinə şahidlik edərkən, bir mənada **"yox olmuşlar"**. Maddə olmaqdan çıxmış artıq bir ruh halına gəlmişlər.

Şübhəsiz bu həqiqətin fərqinə varmaq materialistlər üçün ola biləcək ən dəhşət verici hadisədir. Çünki sahib olduqları hər şeyin bir xəyaldan ibarət olması, öz təbirləri ilə onlar üçün hələ dünyadaykən, "ölmədən bir ölüm" hökmündədir.

Bu həqiqətlə birlikdə, bir Allah, bir də özləri qalmışdır. Necə ki, Allah, **"Məni Öz yaratdığım kimsə ilə tək burax!"** (Muddəssir surəsi, 11) ayəsiylə, hər insanın Allahın qatında əslində tək-tənha olduğu həqiqətinə diqqət çəkmişdir. Bu fövqəladə həqiqət daha bir çox ayə ilə xəbər verilmişdir:

**Siz bizim hüzurumuza ilk dəfə sizi yaratdığımız kimi tək-tənha., özü də sizə verdiyimizi (var-dövləti, əhli-əyalı) arxanızda (dünyada) qoyub gəlmisiniz... (Ənam surəsi, 94)**

**Onların hamısı qiyamət günü Onun hüzuruna (tək-tənha) gələcəklər. (Məryəm surəsi, 95)**

Bu ayələrdə izah edilən həqiqətin bir mənası da budur: Maddəni özlərinə ilah edənlər, Allahdan gəlmiş və yenə Ona dönmüşlər. İstəsələr də, istəməsələr də Allaha təslim olmuşlar. İndi hesab gününü gözləməkdədirlər və o gün hamısı tək-tək sorğuya çəkiləcəklər. Hər nə qədər anlamaq istəməsələr də...

# Nəticə

Bura qədər izah etdiyimiz mövzu, həyatınız boyunca sizə izah edilmiş ən böyük həqiqətlərdən biridir. Çünki bütün maddi dünyanın əslində bir **"görüntülər bütünü"** olduğunu isbat edən bu mövzu, Allahın varlığının və yaradışının qavranmasının, Onun yeganə mütləq varlıq olduğunun başa düşülməsinin açarıdır.

Bu mövzunu anlayan insan, dünyanın, insanların çoxunun sandığı kimi bir yer olmadığını fərqinə varar. Dünya, prospektlərdə məqsədsiz olaraq gəzənlərin, çayxanalarda dava salanların, lüks kafelərdə bir-birlərinə göstəriş edənlərin, mallarıyla öyünənlərin, həyatlarını boş məqsədlərə həsr edənlərin sandığı kimi əslində var olan, mütləq bir yer deyil. Yalnız hisslər bütünü, bir xəyaldır. Saydığımız insanların hamısı da, bu hissləri zehinlərinin içində seyr edən bir kölgə varlıqdır, amma bunun şüurunda deyildirlər.

Bu mövzu çox əhəmiyyətlidir və Allahı inkar edən **materialist fəlsəfəni** ən təməlindən çökdürür. **Marks, Engels, Lenin** kimi materialistlərin bu mövzunu eşitdiklərində çaxnaşmaya qapılmaları, hirslənmələri, yandaşlarını "əsla düşünməyin" deyə xəbərdar etmələri buna görədir. Əslində bu kəslər, hisslərin beyində meydana gəldiyi həqiqətini belə qavraya bilməyəcək qədər böyük bir ağıl çatışmazlığı içindədirlər. Beyinlərinin içində seyr etdikləri dünyanı "xarici dünya" sanmaqda, bunun əksini göstərən açıq-aşkar dəlilləri isə heç cür anlaya bilməməkdədirlər.

Bu qəflət, Allahın inkarçılara vermiş olduğu ağıl əskikliyinin bir nəticəsidir. Çünki Quranda bildirildiyinə görə, inkarçıların **"...qəlbləri vardır lakin onunla (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) anlamazlar, gözləri vardır onunla (Allahın möcüzələrini) görməzlər, qulaqları vardır lakin onunla (öyüd nəsihət) eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!" (Əraf surəsi, 179)**

Bu nöqtədən daha sonrasını, öz səmimi düşüncənizi istifadə edərək də tapa bilərsiniz. Bunun üçün, diqqətinizi cəmləməniz, ətrafınızdakı cisimləri necə gördüyünüz və onlara necə toxunduğunuz haqqında düşünməniz lazımdır. Əgər diqqətlicə düşünsəniz, görən, eşidən, toxunan, düşünən və bu anda bu kitabı oxuyan ağıllı varlığın, yalnız bir ruh olduğunu və sanki bir növ pərdə üzərində "maddə" deyilən hissləri seyr etdiyini hiss edə bilərsiniz. Bunu

qavrayan insan, insanlığın böyük hissəsini aldadan maddi dünya ölçüsündən uzaqlaşıb, həqiqi varlıq ölçüsünə girmiş olar.

Haqqında danışdığımız həqiqət, tarix boyunca bəzi dindarlar ya da fəlsəfəçilər tərəfindən qavranılmışdır. İmam Rəbbani, Muhyiddin Ərəbi, Mövlana Məscid kimi İslam alimləri bu həqiqəti Quranın işarələriylə və ağıl yoluyla tapmışlar. Corc Berkeley kimi bəzi Qərbli fəlsəfəçilər də eyni həqiqəti ağıl yoluyla qavramışlar. İmam Rəbbani, bütün maddi kainatın bir "xəyal və vəhim (hiss)" olduğunu və tək mütləq varlığın da Allah olduğunu *Məktubat*ında belə izah etmişdir:

**Allah... yaratdığı varlıqların bədənlərini yoxluqdan başqa bir şey etmədi... Bütün bunları, xəyal və vəhim (hiss) dərəcəsində yaratdı... Aləmin varlığı hiss və vəhim dərəcəsində olub, maddi dərəcədə deyil... Həqiqi mənada çöldə (xarici dünyada) Uca Şəxsdən (Allahdan) başqası yoxdur (İfadələr Türkcələşdirilmiş izahdan götürülmüşdür).**[29]

İmam Rəbbani insanın qarşılıqlı əlaqədə olduğu bütün görünüşlərin bir xəyaldan ibarət olduğunu, "çöldə" bir əslinin olmadığını da açıqca ifadə etmişdir:

**O mövhum dairə, xəyalda rəsm edilər. O təsvir edildiyi mərtəbədə də görülər. Amma xəyal gözü ilə. Lakin çöldə baş gözü ilə görüldüyü sanılar. Nə var ki, vəziyyət elə deyil. Çöldə onun nə adı vardır nə də izi. Bəli belə bir vəziyyət yoxdur ki, orada görülsün. Aynaya əks olunan bir adamın üzü belə, bu şəkil üzrədir. Çünki onun çöldə bir sabitliyi yoxdur. Əlbəttə onun sabitliyi və görünüşü: Hər ikisi birdən XƏYALDADIR. Ən yaxşı bilən Sübhan Allahdır (İfadələr Türkcələşdirilmiş izahdan götürülmüşdür).**[30]

Mövlana Məscid də Quranın işarələri və ağıl yoluyla tapdığı bu heyrət verici həqiqəti ***"kainatda nə varsa hamısı vəhim və xəyaldır.*** *Ya aynalardakı əkslərdir, ya da kölgələr kimidir"* deyərək dilə gətirmişdir.

Ancaq bu həqiqəti qavrayanların sayı tarix boyunca həmişə məhdud qalmışdır. İmam Rəbbani kimi böyük alimlər, bu həqiqətin kütlələrə izah edilməsinin təhlükəli ola biləcəyini, çoxu insanın bunu anlaya bilməyəcəyini yazmışlar.

İçində yaşadığımız çağda isə, bu həqiqət, elmin ortaya qoyduğu dəlillərlə açıqlanar hala gəlmişdir. Kainatın bir kölgə varlıq olduğu həqiqəti, dünya tarixində ilk dəfə bu cür konkret, açıq və aydın bir şəkildə izah edilməkdədir.

Bu səbəblə **XXI əsr**, insanların geniş şəkildə İlahi həqiqətləri qavrayacaqları və tək mütləq varlıq olan Allaha hamılıqla yönələcəkləri **bir tarixi dönüş nöqtəsi olacaq**. XXI əsrdə, XIX əsrin materialist inancları tarixin zibilliyinə atılacaq, Allahın varlığı və yaradılışı qavranacaq, məkansızlıq, zamansızlıq kimi həqiqətlər aydın olacaq, insanlıq əsrlərdir gözünün önünə çəkilən pərdələrdən, aldatmacalardan və batil inanışlardan xilas olacaq. Bu qaçınılmaz gedişin heç bir kölgə varlıq tərəfindən dayandırılması da mümkün deyil...

# III HİSSƏ

# ZAMANIN NİSBİLİYİ VƏ TALE HƏQİQƏTİ

Buraya qədər izah etdiklərimizlə birlikdə, əslində “üç ölçülü bir məkan”ın var olmadığı, bunun tamamilə hisslərdən qaynaqlanan bir ön mühakimə olduğu və bütün həyatın “məkansızlıq” içində sürdüyü qətilik qazanmaqdadır. Bunun əksini iddia etmək, ağıldan və elmilikdən uzaq bir batil inanc olacaq. Çünki fiziki bir dünyanın varlığına dair əldə etibarlı heç bir dəlil yoxdur.

Bu vəziyyət, təkamül nəzəriyyəsinin də təməlini meydana gətirən materialist fəlsəfənin birinci fərziyyəsini çürüdür. Bu fərziyyə, maddənin mütləq və sonsuz olduğunu iddia edir. Materialist fəlsəfənin ikinci fərziyyəsi isə, zamanın mütləq və sonsuz olduğudur ki, bu da digəri qədər batil bir inancdır.

## Zaman Hissi

Zaman dediyimiz hiss, əslində bir anı bir başqa anla müqayisə etmə üsuludur. Bunu bir örnəklə açıqlaya bilərik. Bir cisimə vurduğumuzda bundan müəyyən bir səs çıxar. Eyni cisimə beş dəqiqə sonra vurduğumuzda yenə bir səs çıxar. Adam, birinci səs ilə ikinci səs arasında bir müddət olduğunu düşünər və bu müddətə “zaman” deyər. Halbuki ikinci səsi eşitdiyi anda, birinci səs yalnız zehinindəki bir xəyaldan ibarətdir. Yalnız yaddaşında var olan bir məlumatdır. **Adam, yaddaşında olanı, yaşamaqda olduğu anla müqayisə edərək** zaman hissini əldə edər. Əgər **bu müqayisə olmasa, zaman hissi də olmayacaq.**

Eyni şəkildə adam, bir otağa qapısından girib sonra da otağının ortasındakı bir kresloya oturan bir insanı gördüyündə, müqayisə edər. Gördüyü insan kresloya oturduğu anda, onun qapını açması, otağının ortasına doğru getməsi ilə əlaqədar görünüşlər, yalnız beyində iştirak edən bir məlumatdır.

Zaman hissi, kresloya oturmaqda olan insan ilə bu məlumatlar arasında müqayisə edilərək ortaya çıxar.

Məşhur fizikaçı Julian Barbour, zamanın tərifini belə verməkdədir:

**Zaman əşyaların mövqelərini dəyişdirmə ölçüsündən başqa bir şey deyil. Bir rəqqas yellənər, saatın qolları irəliləyər.**[13]

Qısacası **zaman, beyində saxlanan bəzi xəyallar arasında müqayisə aparılmasıyla var olmaqdadır.** Əgər bir insanın yaddaşı olmasa, beyni bu cür şərhlər etməz və dolayısilə zaman hissi də meydana gəlməz. Bir insanın "mən otuz yaşımdayam" deməsinin səbəbi, beynində söz mövzusu otuz ilə aid bəzi məlumatların yığılmış olmasıdır. Əgər yaddaşı olmasa, ardında belə bir zaman hissəsi olduğunu düşünməyəcək, yalnız yaşadığı tək bir "an" ilə həmsöhbət olacaq.

## Zamansızlığın Elmi İzahatı

Zamanın, hərəkət edən cisimlər və meydana gələn dəyişmələr arasında etdiyimiz müəyyən bir sıralamadan doğan bir anlayış olduğu həqiqəti, bu gün elmi olaraq da qəbul edilmişdir. Bu mövzuda görüş ifadə edən fikir və elm adamlarından nümunələr verərək mövzunu daha yaxşı şərh etməyə çalışaq.

*The End of Time* (Zamanın Sonu) adlı kitabında zamansızlıq və sonsuzluq haqqındakı şərhləri ilə elm dünyasında böyük əks-səda yaradan fizikaçı Julian Barbour, zamanın bir hiss olmasının, bir çox insan üçün qəbul edilməsi çətin bir həqiqət olduğunu ifadə etməkdədir. *Discover* jurnalında, Barbour ilə aparılan bir reportajda zaman hissi üçün bu şərhlər verilməktədir:

"Mən hələ qəbul etməkdə çətinlik çəkirəm" deyir (Barbour). Ancaq, sağlam fikirlilik kainatı anlamaq üçün heç bir zaman etibarlı bir yol göstərici olmadı–Kopernikin Günəşin Dünya ətrafında dönmədiyini ilk söylədiyi andan bəri fizikaçılar hisslərimizi çaşdırdılar. Hər şeyə baxmayaraq, Dünya 67,000 mil/saat sürət ilə boşluqda dönərkən ən kiçik bir hərəkət belə hiss etmirik.

*Barbour zamanın keçdiyinə dair hissimizin, "Düz Dünya Cəmiyyəti"nin (Flat Earth Society) batil inancı qədər səhv olduğunu iddia edir."*[32]

Yuxarıda da görüldüyü kimi, məşhur fizikaçı Barbour, zamanın mütləq olduğuna dair sahib olduğumuz inancın batil olduğunu ifadə etməkdədir. Və indiki vaxtda fizika sahəsindəki araşdırmalar bu həqiqəti açıqca göstərməkdədir. Zaman mütləq deyil, meydana gələn hadisələrə görə fərqli qəbul edilən nisbi bir anlayışdır.

Nobel mükafatlı məşhur genetika professoru və fikir adamı François Jacob isə, *Mümkünlərin Oyunu* adlı kitabında zamanın geriyə axışı ilə əlaqədar bunları söyləyir:

**Tərsindən göstərilən filmlər, zamanın tərsinə doğru axacağı bir dünyanın nəyə bənzəyəcəyini düşünməyimizə imkan verməkdədir. Südün fincandakı qəhvədən ayrılacağı və süd qabına çatmaq üçün havaya atılacağı bir dünya; işıq dəstələrinin bir qaynaqdan fışqıracaq yerdə bir tələnin (çəkiliş mərkəzinin) içində toplanmaq üzrə divarlardan çıxacağı bir dünya; saysız damlacıqların heyrət verici ahəngiylə suyun xaricinə doğru atılan bir daşın bir insanın ovucuna qonmaq üçün bir əyri boyunca tullanacağı bir dünya. Amma zamanın tərsinə çevrildiyi belə bir dünyada, beynimizin müddətləri və yaddaşımızın meydana gəlməsi də eyni şəkildə tərsinə çevrilmiş olacaq. Keçmiş və gələcək üçün də eyni şey olacaq və dünya tam olaraq bizə göründüyü kimi görünəcək.**[33]

Beynimiz müəyyən bir sıralama üsuluna alışdığı üçün bu anda dünya üstdə izah edildiyi kimi işləməməkdə və zamanın həmişə irəli axdığını düşünməkdəyik. Halbuki bu, beynimizin içində verilən bir qərardır və dolayısilə tamamilə nisbidir. Əslində zamanın necə axdığını ya da axıb axmadığını əsla bilmərik. Bu da **zamanın mütləq bir həqiqət olmadığını, yalnız bir hiss forması olduğunu** göstərir.

Zamanın bir hiss olduğu, XX əsrin ən böyük fizikaçısı sayılan Eynşteynin ortaya qoyduğu Ümumi Nisbilik nəzəriyyəsi ilə də təsdiqlənmişdir. Lincoln Barnett, *Kainat və Eynşteyn* adlı kitabında bu mövzuda bunları yazar:

**Tam kosmosla birlikdə Eynşteyn, sonsuz keçmişdən sonsuz gələcəyə axan çaşmaz və dəyişməz bir universal zaman anlayışını da bir tərəfə buraxdı. Nisbilik nəzəriyyəsini çevrələyən anlaşılmazlığın böyük hissəsi, insanların zaman duyğusunun da rəng duyğusu kimi bir hiss forması olduğunu qəbul etmək istəməyişindən doğulur... Necə kosmos maddi varlıqların ehtimali bir sırası isə, zaman da hadisələrin ehtimali bir sırasıdır. Zamanın öznəlliyini ən yaxşı Eynşteynin sözləri açıqlayar: "Fərdin həyatları bizə bir hadisələr silsiləsi içində təşkil edilmiş görünür. Bu silsilədən xatırladığımız hadisələr daha əvvəl və daha sonra ölçüsünə görə sıralanmış kimidir. Bu səbəblə fərd üçün bir mən-zamanı, ya da öznəl zaman vardır. Bu zaman öz içində ölçülə bilməz. Hadisələrlə ədədlər arasında elə bir əlaqə qura bilərəm ki, böyük bir ədəd əvvəlki bir hadisə ilə deyil də, sonrakı bir hadisələ əlaqədar olar.[34]**

Eynşteyn, Barnettin ifadələriylə, *"kosmos və zamanın da hiss formaları olduğunu, rəng, forma və böyüklük anlayışları kimi bunların da* ***şüurdan ayrıla bilməyəcəyini göstərmiş****"dir. Ümumi Nisbilik nəzəriyyəsinə görə* ***"zamanın da, onu ölçdüyümüz hadisələr silsiləsindən ayrı, müstəqil bir varlığı yoxdur."***[35]

Zaman bir hissdən ibarət olduğuna görə də, tamamilə hiss edənə bağlı, yəni nisbi bir anlayışdır.

Zamanın axış sürəti, onu ölçərkən istifadə etdiyimiz istinadlara görə dəyişər. Çünki insanın bədənində zamanın axış sürətini mütləq bir düzgünlüklə göstərəcək təbii bir saat yoxdur. Lincoln Barnettin ifadə etdiyi kimi ***"rəngi fərqləndirəcək bir göz yoxdursa, rəng deyə bir şey olmayacağı kimi, zamanı göstərəcək bir hadisə olmadıqca bir an, bir saat ya da bir gün heç bir şey deyil."***[36]

Zamanın nisbiliyi, yuxuda çox açıq bir şəkildə yaşanar. Yuxuda gördüklərimizi saatlar sürmüş kimi hiss etsək də, əslində hər şey bir neçə dəqiqə, hətta bir neçə saniyə davam etmişdir.

Mövzunu bir az daha açıqlamaq üçün bir nümunə üzərində düşünək. Xüsusi olaraq dizayn edilmiş tək pəncərəli bir otaqda oturub, burada müəyyən bir müddət keçirdiyimizi düşünək. Otaqda keçən zamanı görə biləcəyimiz bir

də saat olsun. Eyni zamanda otağının pəncərəsindən günəşin müəyyən aralıqlarla doğulub-batdığını görək. Aradan bir neçə gün keçdikdən sonra, o otaqda nə qədər qaldığımız soruşulduğunda verəcəyimiz cavab; həm zaman-zaman saata baxaraq əldə etdiyimiz məlumat, həm də günəşin neçə dəfə doğulub batdığına bağlı olaraq etdiyimiz hesabdır.

Məsələn, otaqda üç gün qaldığımızı hesablarıq. Amma əgər bizi bu otağa qoyan adam bizə gəlib də, “əslində sən bu otaqda iki gün qaldın” desə və pəncərədə gördüyümüz günəşin əslində süni olaraq yaradıldığını, otaqdakı saatın da xüsusilə sürətli işlədildiyini söyləsə, bu vəziyyətdə etdiyimiz hesabın heç bir mənası qalmaz.

Bu nümunə də göstərməkdədir ki, zamanın axış sürətiylə əlaqədar məlumatımız, yalnız qəbul edənə görə dəyişən istinadlara söykənməkdədir.




işıq sürətinə yaxın bir sürətlə kosmosa səyahətə çıxan əkiz bacılardan biri 30 il sonra Yerə qayıtsa Yerdə qalan bacısı ona nəzərən çox yaşlı olacaq.

Zamanın nisbiliyi, elmi üsulla da ortaya qoyulmuş konkret bir həqiqətdir. Eynşteynin Ümumi Nisbilik nəzəriyyəsi ortaya qoymaqdadır ki, zamanın sürəti, bir cisimin sürətinə və çəkiliş mərkəzinə uzaqlığına görə dəyişməkdədir. Sürət artdıqca zaman qısalmaqda, sıxışmaqda; daha ağır daha, yavaş işləyərək sanki “dayanma” nöqtəsinə yaxınlaşmaqdadır.

Bunu Eynşteynin bir nümunəsi ilə açıqlayaq. Bu nümunəyə görə eyni yaşdakı əkizlərdən biri Yerdə qalarkən, digəri işıq sürətinə yaxın bir sürət ilə kosmos səyahətinə çıxar. Kosmosa çıxan şəxs, geri döndüyündə əkiz bacısını

özündən çox daha yaşlı tapacaq. Bunun səbəbi kosmosda səyahət edən qardaş üçün zamanın daha yavaş axmasıdır. Eyni nümunə bir ata və oğul üçün də düşünülə bilər; *"əgər atanın yaşı 27, oğlunun yaşı 3 olsa, 30 dünya ili sonra ata dünyaya döndüyündə oğul 33 yaşında, ata isə 30 yaşında olacaq."*[37]

Zamanın nisbi olması, saatların yavaşlaması və ya sürətlənməsindən deyil; bütün maddi sistemin atom altı səviyyəsindəki zərrəciklərə qədər fərqli sürətlərdə işləməsindən irəli gəlir. Zamanın qısaldığı belə bir mühitdə insan bədənindəki ürək atışları, hüceyrə bölünməsi, beyin fəaliyyətləri kimi əməliyyatlar daha ağır işləməkdədir. Adam zamanın yavaşlamasını heç fərq etmədən gündəlik həyatını davam etdirər.

## Quranda Nisbilik

Müasir elmin bu tapıntılarının bizə göstərdiyi nəticə, **zamanın materialistlərin sandığı kimi mütləq bir həqiqət deyil, nisbi bir hiss oluşudur.** İşin maraqlı yanı isə, XXI əsrə qədər elmin fərqində olmadığı bu həqiqətin, bundan XIV əsr əvvəl endirilmiş olan Quranda bildirilməsidir. Quran ayələrində, zamanın nisbi bir anlayış olduğunu göstərən şərhlər vardır.

Müasir elm tərəfindən təsdiqlənən, zamanın psixoloji bir qəbul olduğu, yaşanan hadisəyə, məkana və şərtlərə görə fərqli qəbul edilə bildiyi həqiqətini bir çox Quran ayəsində görmək mümkündür. Məsələn bir insanın bütün həyatı, Quranda bildirildiyinə görə çox qısa bir müddətdir:

**O gün ki, Allah sizi çağıracaqdır. Siz də Ona şükr edərək dərhal çağırışına cavab verəcəksiniz və sizə elə gələcəkdir ki, çox az qaldınız! (İsra surəsi, 52)**

**... gündüz bir saat belə (dünyada) olmamışlar kimi, bir yerə toplayacağı qiyamət günü onlar bir-birilərini tanıyacaqlar...**

**(Yunus surəsi, 45)**

Bəzi ayələrdə, insanların zaman hisslərinin fərqli olduğuna, insanın əslində çox qısa olan bir müddəti çox uzunmuş kimi qəbul edə bildiyinə işarə edilir. İnsanların axirətdəki sorğuları əsnasında keçən aşağıdakı danışmalar bunun bir nümunəsidir:

**Belə buyuracaqdır: "Yer üzündə neçə il qaldınız?" Onlar:"Bir gün, yaxud bir gündən də az!" deyə cavab verəcəklər. Allah buyuracaq: "Əgər bilirsinizsə, siz çox az qaldınız!" . (Muminun surəsi, 112-114)**

Başqa bəzi ayələrdə də, zamanın fərqli mühitlərdə fərqli bir axış sürətiylə axdığı bildirilər:

**... Rəbbinin qatında bir gün, sizin saydıqlarınızın min ili kimidir. (Həcc surəsi, 47)**

**Mələklər və Ruh (Cəbrayıl), onun dərgahına (dünya ili ilə müqayisədə) müddəti əlli min il olan bir gündə qalxarlar.**

**(Məaric surəsi, 4)**

**O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra həmin işlər sizin saydığınızın (dünya ilinin) min ilinə bərabər olan bir gündə Ona yüksələr. (Səcdə surəsi, 5)**

Bu ayələr, zamanın nisbiliyinin çox açıq bir ifadəsidir. Elm tərəfindən XX əsrdə əldə edilən bu nəticənin bundan 1400 il əvvəl Quranda bildirilmiş olması isə, əlbəttə, Quranın zamanı və məkanı tamamilə bürüyüb əhatə edən Allahın endirdiyinin bir dəlilidir.

Quranın daha bir çox ayəsində istifadə edilən üslub açıqca zamanın bir hiss olduğunu ortaya qoymaqdadır. Xüsusilə də hekayələrdə bu izahatı görmək mümkündür. Məsələn, Allah Quranda bəhs edilən mömin bir birlik olan Əshabi-Kəhfi üç əsri aşan bir müddət dərin bir yuxu halında tutmuşdur. Daha

sonra oyandırdığında isə bu kəslər zaman olaraq çox az bir müddət qaldıqlarını düşünmüşlər, nə qədər yatdıqlarını təxmin edə bilməmişlər:

**Biz onları mağarada illərlə yuxuya verdik. Sonra iki tayfadan hansının onların qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq. (Kəhf surəsi, 11-12)**

**Beləcə də onları bir-birindən hal-əhval tutsunlar deyə oyatdıq. Onların biri dedi: “nə qədər qaldınız?" Onlar: “Bir gün ya da bir gündən də az!" deyə cavab verdilər... (Kəhf surəsi, 19)**

Aşağıdakı ayədə izah edilən vəziyyət də zamanın əslində psixoloji bir hissiyyat olduğunun əhəmiyyətli bir dəlilidir.

**Yaxud damları çökmüş divarları uçulmuş bir kəndin yanından keçən şəxsin əhvəlatını eşitmədinmi? O şəxs: “Əcəba, Allah bu kəndi ölümündən sonra necə diriləcək?" demişdi. Belə olduqda Allah onu yüz il ölü halında saxladı, sonra dirildərək ondan: “Nə qədər yatmısan?" deyə soruşdu. O da bir gün ya da bir gündən daha az" deyə cavab verdi. Allah ona: “Bəlkə yüz il yatmısan, yediyin yeməyə, içdiyin suya bax, hələ də xarab olmayıb. Bir də uzunqulağına bax! Səni insanlar üçün bir ibrət dərsi olmaqdan ötrü belə etdik. İndi uzunqulağının sümüklərinə bax, gör necə onları bir-biri ilə birləşdirir, sonra da necə onların üzərini ətlə örtürük?" deyə buyurdu. O şəxsə bunlar aydın olduqda: “Artıq bildim ki, Allah hər şeyə qadirdir!" dedi. (Bəqərə surəsi, 259)**

Görüldüyü kimi bu ayə zamanı yaradan Allahın zamandan münəzzəh olduğunu açıqca vurğulamaqdadır. İnsan isə Allahın özü üçün təqdir etdiyi zamana bağlıdır. Ayədə görüldüyü kimi insan nə qədər yuxuda qaldığını belə bilməkdən acizdir. Belə bir vəziyyətdə (materialistlərin əyri məntiqində olduğu kimi) zamanın mütləq olduğunu iddia etmək, son dərəcə ağıldan kənar olacaq.

# Zamanın Nisbiliyi, Tale Həqiqətini – alın yazısını da Açıqlamaqdadır

Zamanın nisbiliyi ilə əlaqədar şərhlərdən və ayələrdən göründüyü kimi, zaman qəbula dəyişənlik göstərən, sabit olmayan bir anlayışdır. Məsələn bizim üçün milyardlarla il davam edən bir zaman hissəsi, Allah qatında bir andır. Bizim üçün 50 min illik bir müddət mələklər və Cəbrayıl üçün bir gündür.

Bu həqiqətin bilinməsi, tale mövzusunun qavranması üçün çox əhəmiyyətlidir. Çünki tale, Allahın keçmiş və gələcək bütün hadisələri "tək bir an" içində yaratmış olmasıdır. Bu da, Allah qatında kainatın yaradılış anından qiyamətə qədər olan hər hadisənin yaşanmış və bitmiş olması deməkdir. İnsanların əhəmiyyətli bir hissəsi, Allahın hələ yaşanmamış hadisələri əvvəldən necə bildiyini, Allah qatında keçmiş və gələcək bütün hadisələrin necə yaşanıb bitdiyini və talenin həqiqətini heç cür qavraya bilməzlər.

Halbuki "yaşanmamış hadisələr" bizim aspektimizdən yaşanmamış hadisələrdir. Çünki biz Allahın yaratdığı zamana bağlı olaraq həyatımızı davam etdiririk və yaddaşımıza verilən məlumatlar olmadan heç bir şey bilmərik. Allah, dünyadakı imtahan mühitinin gərəyi kimi "gələcək" olaraq adlandırdığımız hadisələri yaddaşımıza vermədiyi üçün, gələcəkdə nə olacağını da bilmərik. Allah isə zamana və məkana bağlı deyil, zatən bunların hamısını yoxdan yaradan Özüdür.

Bu səbəblə Allah üçün keçmiş, gələcək və bu an hamısı birdir və hamısı olub bitmişdir. Allah bir hadisənin sonunu görmək üçün gözləməz. Zatən bir hadisənin başı da sonu da Onun qatında tək bir anda yaşanar. Məsələn Fironun necə bir sona uğradığını Allah daha Hz. Musanı Firona göndərmədən. Hz. Musa daha doğulmadan, hətta Misir dövləti daha qurulmadan əvvəl bilib və bütün bu hadisələr Fironun sonu ilə birlikdə Allah qatında tək bir an olaraq yaşanmışdır. Ayrıca Allah üçün keçmişi xatırlama deyə bir şey də yoxdur. Keçmiş və gələcək hazır olaraq Allahın daim qarşısındadır., hamısı eyni anda mövcuddur.

Bir insan bütün həyatını bir kino lenti olaraq düşünsə, biz bu lenti video kasetdən seyr edər kimi seyr edərik və kaseti irəli çəkmək kimi bir imkanımız yoxdur. Allah isə, bu film lentasının hamısını eyni anda görər və bilər. Zatən bu filmi bütün detallarıyla təsbit etmiş və yaratmış olan Odur. Biz necə bir

cədvəlin başını, ortasını və sonunu bir dəfədə görə biliriksə, Allah bizim bağlı olduğumuz zamanı başından sonuna qədər tək bir an olaraq bürüyüb əhatə etmişdir. İnsanlar isə yalnız zamanı gəldikdə bu hadisələri yaşayıb, Allahın onlar üçün yaratdığı taleyə şahid olarlar.

Bu, dünya üzərindəki bütün insanların taleləri üçün bu şəkildədir. Bu günə qədər yaradılmış və bu gündən sonra da yaradılacaq olan bütün insanların dünya və axirətdəki həyatları, hər anları ilə Allahın qatında hazır və yaşanmış olaraq var. Allahın sonsuz "hifzi"ndə, milyardlarla insanla birlikdə bütün canlıların, planetlərin, bitkilərin, əşyaların taleyində yazılı hadisələr də heç azalmadan və ya itmədən dayanmaqdadır. Tale həqiqəti, Allahın Hafiz (Mühafizə edən, Qoruyan) sifətinin, sonsuz gücünün, qüdrətinin və böyüklüyünün təcəllilərindən biridir.

## "Keçmiş" Anlayışı Yaddaşımızdakı Məlumatların Əsasında Meydana gəlir

Biz, bizə verilən təlqinə görə, keçmiş, bu an və gələcək kimi hissələrə ayrılmış zaman dilimlərini yaşadığımızı zənn edərik. Halbuki, "keçmiş" kimi bir anlayışa sahib olmamızın tək səbəbi, -daha əvvəl də ifadə etdiyimiz kimi- yaddaşımıza bəzi hadisələrin verilməsidir. Məsələn, ibtidai məktəbə qeyd olduğumuz an yaddaşımızda olan bir məlumatdır və biz bu səbəblə bunu keçmiş bir hadisə hesab edərik. Gələcəklə əlaqədar hadisələr isə yaddaşımızda yoxdur.

Bu səbəblə biz hələ xəbərdar olmadığımız bu hadisələri "yaşanacaq", "gələcəkdə meydana gələcək" hadisələr olaraq qəbul edərik. Halbuki keçmiş necə bizim üçün yaşanmış, təcrübə edilmiş, görülmüş hadisələrdirsə, gələcək də eyni şəkildə yaşanmışdır. Ancaq bu hadisələr bizim yaddaşımıza verilmədiyi üçün biz bunları bilmərik.

Əgər Allah, gələcəklə əlaqədar hadisələri də yaddaşımıza vermiş olsaydı, o zaman gələcək də bizim üçün keçmiş olardı. Məsələn, 30 yaşındakı bir insanın yaddaşında 30 illik xatirələr, hadisələr var və bu səbəblə bu insan 30 illik bir keçmişi olduğunu düşünər. Əgər bu insanın yaddaşına 30 ilə 70 yaş

arasındakı gələcəyinə dair hadisələr də veriləcək olsa, o zaman 30 yaşındakı bu insan üçün həm 30 ili həm də 30 ilə 70 yaşı arasındakı "gələcəyi" keçmişi halına gəlir. Çünki, bu vəziyyətdə keçmişi də gələcəyi də yaddaşında mövcud olacaq, hər ikisi də onun üçün yaşanmış, görülmüş, təcrübə edilmiş hadisələr olacaq.

Ancaq Allah, bizə hadisələri müəyyən bir sıra içində, kiçikdən böyüyə doğru axacaq şəkildə, sanki keçmişdən gələcəyə axan bir zaman varmış kimi hiss etdirdiyi üçün, bizə gələcəyimizlə əlaqədar hadisələri bildirməz, bunların məlumatını yaddaşımıza verməz. Gələcək bizim yaddaşımızda yoxdur, ancaq Allahın sonsuz hifzində, bütün insanların keçmişləri və gələcəkləri var. Bu, daha əvvəl də ifadə edildiyi kimi, bir insanın həyatını, zatən mövcud olan bir filmdən izləməsi kimidir. Film, zatən çəkilmiş və bitmişdir. Ancaq, bu filmi irəli vermə imkanı olmayan insan, kadrları tək-tək seyr etdikcə həyatını görər. Hələ seyr etmədiyi kadrların isə gələcəyi olduğunu zənn edərək yanılar.

## Keçmiş və Gələcək Qeyb Xəbəridir

Allah Quranın bir çox ayəsində qeybi, yəni görünməyəni, bilinməyəni, şahid olunmayanı bilənin yalnız Özü olduğunu bildirməkdədir:

**De ki: "Ey göyləri və yeri yoxdan yaradan, ey gizlini (qeybi) və aşkarı bilən Allah! Bəndələrin arasında ixtilafda olduqları məsələlər barəsində Sən hökm edəcəksən!" (Zumər surəsi, 46)**

**De ki: "(Qorxub) qaçdığınız ölüm sizi mütləq yaxalayacaqdır. Sonra siz gizlini də aşkarı da bilən Allahın hüzuruna qaytarılacaqsınız. O da sizə nələr etdiyinizi xəbər verəcəkdir!" (Cümə surəsi, 8)**

**O: " Ey Adəm, bunların adlarını onlara bildir!" dedi. Adəm mələklərə bunların adlarını xəbər verdikdə, Allah: "Mən sizə, göylərin və yerin gözə görünməyən sirlərini və sizin zahirə çıxardığınız, yaxud gizli saxladığınız işləri bilirəm, söyləmədimmi?" (Bəqərə surəsi, 33)**

Ümumiyyətlə qeybin yalnız gələcəyə aid bilinməyən məlumatlar olduğu düşünülür, halbuki həm keçmiş həm də gələcək qeybdir. Keçmişdə yaşananlar da gələcəkdə yaşanacaq olanlar da Allah qatında saxlanılan məlumatlardır. Ancaq Allah, Öz qatında olan qeyb məlumatlarından bəzilərini insanların yaddaşlarına verərək, bunları bilinə bilən, yəni müşahidə edilə bilən hala gətirməkdədir. Məsələn Allah bəzi ayələrində keçmişə aid məlumatlar verərək, Peyğəmbərimizə bunların qeyb xəbərləri olduğunu söyləmişdir:

**Bunlar Sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Bundan qabaq onları nə sən, nə də ümmətin bilirdi. Səbr et. Həqiqətən aqibət müttəqilərindir! (Hud surəsi, 49)**

**Bu, sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Onlar hiylə quraraq əlbir iş gördükləri zaman sən onların yanında deyildin!**

**(Yusuf surəsi, 102)**

Allah Peyğəmbərimizə hələ yaşanmamış bəzi hadisələrdən də xəbərlər vermişdir ki, bunlar gələcəyə dair qeyb xəbərləridir. Məsələn Məkkənin fəthi (Fəth surəsi, 27) və Rumun bütpərəstlərə qarşı qalibiyyəti (Rum surəsi, 3-4), bu hadisələr hələ yaşanmadan əvvəl Peyğəmbərimizə bildirilmişdir. Peyğəmbərimizin qiyamət əlamətləri, Axırzaman kimi mövzulardakı hədisləri də, o dövr bütün insanlar üçün qeyb olan bu məlumatları, Allahın özünə öyrətdiyini göstərməkdədir.

Quranda peyğəmbərlərə və digər bəzi saleh möminlərə də qeybdən xəbərlər verildiyi açıqlanmaqdadır. Məsələn Hz. Yusifə qardaşlarının tələlərinin boşa çıxacağı xəbər verilmiş (Yusif surəsi, 15), Hz. Musanın anasına, körpə yaşdakı oğlunun Firon zülmündən xilas olacağı və peyğəmbər olacağı vəhylə açıqlanmışdır. (Qəsəs surəsi, 7)

Nəticə olaraq, bizim keçmiş və gələcək olaraq adlandırdığımız hadisə və məlumatların hamısı, Allah qatında saxlanılan qeyb xəbərləridir. Allah dilədiyi zaman dilədiyi adamın yaddaşına bu xəbərlərdən bəzilərini verərək, qeybin bir qisimini bilinər hala gətirməkdədir. Bax müşahidə edilə bilən yəni görülə bilən, şahid olunmuş hala gələn bu hadisələr, insanlar tərəfindən keçmiş olaraq xarakterizə edilir.

## Taleyə Təslimiyyətin Əhəmiyyəti

Keçmiş və gələcəyin əslində Allah qatında yaradılmış və yaşanmış olaraq gizli və hazır hadisələr olmaları bizə çox əhəmiyyətli bir həqiqəti göstərir: Hər insan qeydsiz və şərtsiz taleyinə təslim olmuşdur. İnsan necə keçmişini dəyişdirə bilməzsə, gələcəyini də dəyişdirə bilməz. Çünki keçmişi kimi gələcəyi də yaşanmışdır; gələcəyindəki bütün hadisələr, nə vaxt, harada, nə yemək yeyəcəyi, kiminlə nə danışacağı, nə qədər pul qazanacağı, hansı xəstəliklərə tutulacağı, nəhayət nə vaxt, necə, harada öləcəyi hamısı müəyyəndir və bunları dəyişdirə bilməz. Çünki bunlar onsuz da Allah qatında, Allahın yaddaşında yaşanmış olaraq var. Yalnız bunların məlumatı hələ öz yaddaşında deyil.

Bu səbəbdən başlarına gələn hadisələrə kədərlənən, əsəbiləşən, qışqırıb-çığıranlar, gələcəyi üçün narahat olanlar, hirslənənlər əslində özlərini boş yerə üzməkdədirlər. Çünki, necə olacağından qayğı və qorxu duyduqları gələcəkləri, onsuz da yaşanmışdır. Və nə edirlərsə etsinlər bunları dəyişdirmə imkanları yoxdur.

**Bu nöqtədə ifadə edilməsi lazım olan çox əhəmiyyətli bir nöqtə, səhv bir tale anlayışından çəkinmək lazım olduğudur.** Bəzi insanlar, "necə olsa taleyimdə nə varsa o olacaq, o zaman mənim heç bir şey etməmə ehtiyac yoxdur" deyərək **yanlış tale anlayışı** meydana gətirirlər. Hər yaşadığımızın taleyimizdə müəyyən olduğu bir həqiqətdir. Biz daha o hadisəni yaşamadan əvvəl o hadisə Allah qatında yaşanmışdır və məlumatı da bütün detalları ilə Allah qatındakı Lövhi-Məhfuz adlı kitabda yazılıdır.

Ancaq, Allah hər insana sanki hadisələri dəyişdirməyə, öz qərar və seçkisinə görə hərəkət etməyə imkanı varmış kimi bir hiss verər. Məsələn

insan, su içmək istədiyində bunun üçün "taleyimdə varsa içərim" deyərək oturub gözləməz. Bunun üçün qalxar, stəkanı götürər və suyunu içər. Həqiqətən də taleyində təsbit edilmiş stəkanda, təsbit edilmiş miqdarda suyu içər.

Ancaq, bunları edərkən öz iradəsi və istəyi ilə etdiyinə dair bir hiss duyar. Və həyatı boyunca bu hissi hər etdiyi işdə yaşayar. Allaha və Allahın yaratdığı taleyinə təslim olmuş bir insan ilə bu həqiqəti qavraya bilməyən bir insan arasındakı fərq budur: Təslimiyyətli olan insan, öz etdiyi hissini yaşamasına baxmayaraq, bunların hamısını Allahın diləməsi ilə etdiyini bilər. Digəri isə, hər etdiyini öz ağılı və gücü ilə etdiyini zənn edərək yanılar.

Məsələn, bir xəstəliyi olduğunu öyrənən təslimiyyətli bir insan, bunun taleyində olduğunu bildiyi üçün son dərəcə təvəkküllü davranar. "Allah bunu taleyimdə yaratdığına görə, mütləq böyük bir xeyr vardır" deyə düşünər. Amma "əgər taleyimdə yaxşılaşmaq varsa yaxşılaşaram" deyərək tədbir görmədən gözləməz. Əksinə, ola biləcək bütün tədbirləri görər. Həkimə gedər, bəslənməsinə diqqət yetirər, dərmanlarını alar.

Ancaq getdiyi həkimin, həkimin tətbiq etdiyi müalicənin, qəbul etdiyi dərmanların, bunların öz üzərində nə qədər təsirli olacağının, yaxşılaşıb yaxşılaşmayacağının, qısacası hər detalın taleyində olduğunu unutmaz. Bunların hamısının, Allahın yaddaşında, daha özü dünyaya gəlmədən əvvəl hazır olaraq mövcud olmuş olduğunu bilər. Allah, Quranda, insanların yaşadıqları hər şeyin əvvəldən bir kitabda yazılı olaraq olduğunu belə bildirər:

**Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda (lövhi-məhfuzda) yazılmamış olsun. Bu, Allah üçün çox asandır! Bu sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə verilənə də sevinib qürrələnməməyiniz üçündür. Allah özünü bəyənən, özü ilə fəxr edən heç bir kəsi sevməz! (Hədid surəsi, 22-23)**

Bax buna görə, taleyə iman edən bir insan, başına gələn heç bir hadisədən ötrü kədərlənməz, ümidsizliyə qapılmaz. Əksinə son dərəcə təvəkküllü, təslimiyyətli və daim dinclik içərisində olar. Çünki Allah insanların başlarına gələn hər şeyin əvvəldən müəyyən olduğunu, bu səbəblə başlarına gələn çətinliklərə kədərlənməmələrini və özlərinə verilən nemətlərlə

ərköyünləşməmələrini əmr etmişdir. İnsanın qarşılaşdığı çətinliklər də, əldə etdiyi müvəffəqiyyət və zənginliklər də Allahın təqdiri ilədir. Bunların hamısı Rəbbimizin insanları sınamaq üçün talelərində əvvəlcədən təyin etdiyi hadisələrdir. Bir ayədə bildirildiyi kimi, **"... Allahın əmri əzəli hökmdür (taledir. O mütləq yerinə yetməlidir.)".** (Əhzab surəsi, 38)

Allah bir başqa ayəsində isə **"Şübhəsiz ki, biz hər şeyi müəyyən ölçü ilə (tale ilə) yaratdıq."** (Qəmər surəsi, 49) deyə bildirməkdədir. Yalnız insanların deyil, bütün canlıların, əşyanın, Günəşin, Ayın, dağların, ağacların, hər varlığın Allah qatında təyin olunmuş bir taleyi vardır. Məsələn, qırılan bir antikvar vaza, taleyində təsbit edilən anda qırılmışdır. Bir neçə əsrlik bu vaza, daha ilk emal edilərkən, kimlərin istifadə edəcəyi, hansı evin hansı küncündə, hansı əşyalarla birlikdə dayanacağı müəyyən olunmuş olur.

Vazanın hər naxışı, üzərindəki hər rəng taledə əvvəlcədən təsbit edilmişdir. Vazanın hansı gün, hansı saat, hansı dəqiqə, kim tərəfindən necə qırılacağı da Allahın hifzində yaşanmış olaraq dayanmaqdadır. Hətta, vazanın ilk emal edildiyi an, ilk dəfə satılmaq üzrə vitrinə qoyulduğu an, bir evin küncündə dayandığı an və qırılaraq parça-parça olduğu an, qısacası antikvar vazanın əsrlər boyu içində olduğu hər an, Allah qatında tək bir an olaraq mövcuddur. Vazanı qıran adam, bir neçə saniyə əvvəl belə bundan xəbərsizkən, Allah qatında o an yaşanmışdır və bilinməkdədir.

Bu səbəblə Allah, insanlara əllərindən çıxanlara kədərlənməmələrini bildirər. Çünki, əllərindən çıxanlar talelərində çıxmışdır və o insanların bunu dəyişdirməyə gücləri yoxdur. Ancaq insanlar talelərində meydana gələn hadisələrdən bir dərs almalı, bunlarla öyrədilməli, bu hadisələrdəki hikmət və xeyirləri görərək, daim, talelərini yaradan sonsuz mərhəmətli, şəfqətli, ədalətli, qullarını qoruyan Rəbbimizə yönəlməlidirlər.

Bu əhəmiyyətli əslindən qafil yaşayan insanlar, həyatları boyunca həmişə narahatlıq və qorxu içində olarlar. Məsələn, uşaqlarının gələcəyi üçün çox narahatlanarlar. Hansı məktəbdə oxuyacağı, hansı peşənin sahibi olacağı, sağlamlığının necə olacağı, necə bir həyat yaşayacağı kimi mövzularda təvəkkülsüz bir səy içindədirlər. Halbuki, hər insanın, daha tək bir hüceyrə olduğu halından ilk oxuma yazma öyrəndiyi ana, universitet imtahanında verdiyi cavablardan həyatı boyunca hansı şirkətdə nə işdə işləyəcəyinə, hansı kağızlara neçə dəfə imza atacağına, harada və necə öləcəyinədək hər anı Allah qatında müəyyəndir.

Bu hadisələrin bütünü, Allahın hifzində gizli olaraq dayanmaqdadır. Məsələn bu anda, bu misraları oxuyan insanların döl halı, ibtidai məktəbdəki halı, universitetdəki halı, 35-ci ad gününü qeyd etdiyi anı, işinə başladığı ilk günü, öldüyündə mələkləri gördüyü an, yaxınları tərəfindən dəfn edildiyi və axirətdə Allaha hesab verdiyi anlar, tək bir an olaraq Allahın qatındadır.

O halda, hər anı Allahın qatında yaşanmış, görülmüş və Allahın yaddaşında hazır dayanan bir həyat üçün narahatlanmaq, qorxu duymaq, kədərlənmək böyük bir qəflətdir. Nə qədər çalışırsa çalışsın, nə qədər narahat olursa olsun bir insanın özü də, uşağı da, yoldaşı və yaxınları da özləri üçün Allah qatında hazır olan həyatlarını yaşayacaqlar.

Elə isə, ağıl və vicdan sahibi bir insanın bu həqiqəti qavrayaraq, Allaha və Allahın yaratdığı taleyə könüldən təslim olması lazımdır. Əslində hər insan onsuz da Allaha təslim olmuş və boyun əymiş olaraq yaradılmışdır. Çünki, istəsə də, istəməsə də Allahın özü üçün yaratdığı taleyə boyun əyərək yaşayar. Taleyi inkar edən insan da taleyində "**taleyi inkar etmək**" olduğu üçün inkarçıdır.

Allaha könüldən təslim olaraq boyun əyənlər isə, həm Allahın məmnuniyyətini, rəhmətini və cənnətini qazanmağı ümid edə bilərlər, həm də dünyada və axirətdə, güvən və xoşbəxtlik içində bir dinc həyat sürərlər. Çünki, Allaha təslim olan, Allahın yaratdığı talenin özü üçün ən xeyirlisi olduğunu bilən bir insanı üzəcək, qorxudacaq, narahatlıqlandıracaq heç bir şey yoxdur. Bu insan, əlindən gələn hər səyi göstərər, ancaq bu səyin də taleyində olduğunu, nə edirsə etsin taleyində yazılı olanları dəyişdirməyə güc çatdıra bilməyəcəyini bilər.

Mömin, Allahın yaratdığı taleyə təslim olacaq, bununla birlikdə qarşılaşdığı hadisələr qarşısında əlindən gəldiyincə səbəblərə sarılacaq, tədbir görəcək, hadisələri xeyr istiqamətində istiqamətləndirmək üçün çalışacaq, amma bütün bunların tale içində reallaşdığı və Allahın ən xeyirlisini əvvəldən təqdir etdiyinin şüuru və rahatlığı içində olacaq.

Quranda bu rəftara nümunə olaraq Hz. Yaqubun uşaqlarının təhlükəsizliyi üçün almış olduğu bir tədbirdən danışılır. Hz. Yaqub, pis niyyətli insanların diqqətini çəkməmələri üçün oğullarına şəhərə ayrı-ayrı qapılardan girməyi öyrətmiş, amma bunun Allahın təyin etmiş olduğu taleyə əsla təsir etməyəcəyini də onlara xatırlatmışdır:

**Yəqub dedi: " Oğullarım! Misirə eyni bir qapıdan girməyin, ayrı-ayrı qapılardan daxil olun. Bununla belə mən Allahın qəza-taleyini sizdən heç bir şeylə dəf edə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül etdim. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər!" (Yusuf surəsi, 67)**

Allah, insanların nə edirlərsə etsinlər talelərini dəyişdirə bilməyəcəklərini bir ayəsində belə bildirər:

**Bu qəm qüssədən sonra Allah sizə rahatlıq üçün xəfif bir uyğu göndərdi. O sizin bir qisminizi bürüdü. O biri qisminiz isə ancaq öz canlarının harayına qalaraq: "Bu işdə bizim üçün bir şey (xeyir) varmı?" – deyə Allaha qarşı haqsız yerə, cahiliyyətə xas olan düşüncələrə qapıldılar. Onlara de: "Əlbəttə, bütün işlər Allaha məxsusdur (Allahın əlindədir)". Onlar (münafiqlər) sənə açıb bildirmədikləri şeyləri öz ürəklərində gizlədərək: "Əgər bu işdə bizim üçün bir şey (bir qələbə) olsaydı, elə buradaca öldürülməzdik", - deyirlər. De: "Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə çıxıb əbədi yatacaqları (öləcəkləri) yerlərə gedərdilər ki, Allah (bununla) sizin ürəklərinizdə olanları (səmimiyyət və ikiüzlülüyü) yoxlayıb aşkara çıxartsın və qəlblərinizdə olanları (niyyətlərinizi) təmizləsin. Allah ürəklərdə olanları biləndir!" (Ali-İmran surəsi, 154)**

Ayədə də görüldüyü kimi, bir insan ölməmək üçün xeyr və ibadət olan bir işdən qaçsa belə, əgər ona ölüm yazılmışsa onsuz da öləcək. Hətta, ölümdən qaçmaq üçün müraciət etdiyi yollar və üsullar da taleyində müəyyəndir və hər insan taleyindəki hadisəni yaşayacaq. Allah, bu ayədə də, insanlara talelərində yaratdığı hadisələrin məqsədinin onları sınamaq və onların ürəklərini təmizləmək olduğunu ifadə etməkdədir. "Fatir" surəsində isə, hər insanın ömrünün Allah qatında müəyyən olduğu, rəhmlərə düşən körpələrin də Allahın icazəsiylə olduğu bildirilər:

**Allah sizi (atanız Adəmi) torpaqdan, sonra nütfədən xəlq etmiş, sonra da sizi cüt-cüt yaratmışdır. O bilmədən heç bir qadın hamilə olmaz və bari-həmlini yerə qoymaz. Ömür sahibi olan birinin uzun ömr sürməsi də, onun ömrünün qısa olması da ancaq kitabda (lövhi-məhfuzda) yazılmışdır. Həqiqətən bu Allah üçün çox asandır. (Fatir surəsi, 11)**

Qəmər surəsinin aşağıdakı ayələrində isə, insanın hər etdiyinin sətir sətir yazılı olduğu bildirilərkən, cənnət xalqının yaşadıqları da yaşanmış hadisələr olaraq izah edilməkdədir. Daha əvvəl də ifadə edildiyi kimi, cənnətdəki real həyat bizim üçün gələcəkdir. Ancaq, cənnətdə olanların həyatları, söhbətləri, ziyafətləri bu anda Allahın hifzində var. Biz doğulmadan əvvəl də bütün insanlığın dünyadakı və axirətdəki gələcəyi Allah qatında bir an içində yaşanmışdır və Allahın hifzində mühafizə edilməkdədir:

**Onların etdiyi hər şey dəftərlərdədir! Hər bir kiçik və böyük şey yazılmışdır! Şübhəsiz ki, müttəqilər cənnət bağlarında və çaylar kənarında, haqq məclisində, qadir hökmdar Allahın hüzurundadırlar! (Qəmər surəsi, 52-55)**

Allah qatında zamanın tək bir an olduğunu, Allah üçün keçmiş və gələcək olmadığını Quranda istifadə edilən bu üslubdan da anlayırıq. Görüldüyü kimi bizim üçün gələcək zamanda olacaq bəzi hadisələr, Quranda çoxdan olub bitmiş bir hadisə kimi izah edilməkdədir. Çünki Allah keçmişi də gələcəyi də, bir an olaraq onsuz da yaratmışdır. Bu səbəblə gələcəkdə olacağı izah edilən bir hadisə onsuz da olub bitmişdir.

Amma biz görmədiyimiz üçün onu gələcək zənn edərik. Allah, bizim bağlı olduğumuz nisbi zaman ölçüsünə bağlı deyil. Allah bütün hadisələri zamansızlıqda diləmiş, insanlar bunları etmiş, bütün bu hadisələr yaşanmış və nəticələnmişdir. Kiçik böyük hər cür hadisənin, Allahın məlumatı daxilində reallaşdığı və bir kitabda qeydli olduğu həqiqəti isə aşağıdakı ayədə belə xəbər verilər:

**Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız zaman biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey Allahdan gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şeydə yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın! (Yunus surəsi, 61)**

## Materialistlərin Narahatlığı

Maddənin həqiqəti ilə zamansızlıq və məkansızlıq mövzularını ələ aldığımız bu hissədə izah edilənlər, əslində son dərəcə açıq həqiqətlərdir. Daha əvvəl də ifadə edildiyi kimi bunlar qətiliklə bir fəlsəfə ya da bir düşüncə forması deyil, **rədd edilməsi mümkün olmayan elmi nəticələrdir**. Texniki bir həqiqət olmağından başqa, ağla söykənən məntiqi dəlillər də bu mövzuda başqa alternativə imkan tanımamaqdadır: **Kainat**, onu meydana gətirən maddələr və içindəki insanlarla və zamanla birlikdə bir **görüntü varlıqdır**. Yəni bir hisslər bütünüdür.

Materialistlər bu həqiqəti anlamaqda çətinlik çəkərlər. Məsələn təkrar materialist Politzerin avtobus nümunəsinə dönəcək olsaq; Politzer hisslərinin xaricinə çıxa bilməyəcəyi həqiqətini texniki olaraq bildiyi halda, bunu yalnız müəyyən hadisələr üçün qəbul edə bilmişdir. Yəni Politzer üçün avtobus vurana qədər hadisələr beyninin içində meydana gəlməkdədir, amma avtobus vurduğu anda hadisələr birdən beyninin xaricinə çıxaraq maddi bir həqiqət qazanmaqdadır.

Buradakı məntiq pozuqluğu açıqca ortadadır; Politzer də "daşa vururam, ayağım ağrıyır, demək ki, var" deyən materialist Johnsonun səhvinə düşmüş, avtobus vurmasında hiss edilən şiddətin də əslində bir hissdən ibarət olduğunu qavraya bilməmişdir.

Materialistlərin bu mövzunu anlaya bilməmələrinin şüuraltındakı əsl səbəbi isə, anladıqlarında qarşı-qarşıya qalacaqları əslindən böyük bir qorxu duymalarıdır. Lincoln Barnett, bu mövzunun təkcə "sezilməsinin" belə materialist elm adamlarını qorxu və narahatlığa sürüdüyünü belə ifadə edir:

**Filosoflar bütün obyektiv həqiqətləri hisslərin bir kölgə dünyası halına gətirərkən, elm adamları insan duyğularının sərhədlərini qorxu və narahatlıq ilə sezdilər.[38]**

Maddənin və zamanın bir hiss olduğu həqiqəti izah edildiyində bir materialist böyük bir qorxuya qapılar. Çünki maddə və zaman mütləq varlıq olaraq bağlandığı yeganə iki anlayışdır. Bunlar sanki sitayiş etdiyi bir bütdür; çünki özünün maddə və zaman tərəfindən (təkamül yoluyla) yaradıldığına inanmaqdadır.

İçində yaşadığını düşündüyü kainatın, dünyanın, öz bədəninin, digər insanların, fikirlərindən təsirləndiyi materialist filosofların, qısacası hər şeyin bir hiss olduğunu anladığında isə bütün mənliyini bir dəhşət duyğusu bürüyər. Güvəndiyi, inandığı, mədət umduğu, ümid etdiyi hər şey bir anda özündən uzaqlaşıb itər. **"Müşriklər o gün Allaha təslim olacaq, özlərindən uydurub düzəltdikləri bütlər də aradan çıxacaqlar ( müşrikləri isə qorxu bürüyəcək)!"** (Nəhl surəsi, 87) ayəsində təsvir edilən çarəsizliyi hiss edər.

Bu andan etibarən materialist özünü maddənin həqiqətinə inandırmağa çalışar, bunun üçün özüncə "dəlil"lər meydana gətirər; yumruğunu divara vurar, daşları təpiklər, qışqırar, çağırar, amma əsla həqiqətən xilas ola bilməz.

Materialistlər, bu həqiqəti öz başlarından atmaq istədikləri kimi, digər insanların da zehinindən uzaqlaşdırmaq istəyərlər. Çünki maddənin həqiqət mahiyyəti insanlar tərəfindən bilindiyi təqdirdə, fəlsəfələrinin primitivliyinin və cahil dünyagörüşlərinin ortaya çıxacağının, fikirlərini izah edəcək bir zəmin qalmayacağının fərqindədirlər. Bax burada izah edilən əslindən bu cür narahat olmalarının səbəbi, yaşadıqları bu qorxulardır.

Allah inkarçıların bu qorxularının axirətdə daha da şiddətlənəcəyini bildirmişdir. Hesab günü Allah onlara belə səslənəcək:

**O gün (qiyamət günü) onların hamısını bir yerə toplayacaq, sonra şərik qoşanlara deyəcəyik: "İddia etdiyiniz şəriklər haradadır!?" (Ənam surəsi, 22)**

Bunun ardından inkarçılar, dünyada var zənn edərək Allaha şirk qoşduqları mallarının, övladlarının, ətraflarının özlərindən uzaqlaşdığına və

tamamilə yox olduqlarına şahid olacaqlar. Allah bu həqiqəti də, **"Gör onlar özlərinə qarşı necə yalan deyirlər! Özlərindən uydurub düzəltdikləri də onlardan qeyb olacaq!"** (Ənam surəsi, 24) ayəsiylə xəbər vermişdir.

## İnananların Qazancı

Maddənin və zamanın bir hiss olduğu həqiqəti, materialistləri qorxudarkən, inananlar üçün tam əksi baş verər . Allaha iman edən insanlar maddənin ardındakı sirri qavradıqları zaman böyük bir sevinc duymaqdadırlar. Çünki bu həqiqət hər cür mövzunun açarıdır. Bu kilid açıldığı anda bütün sirlər ortaya çıxar. İnsan normalda bəlkə anlamaqda çətinlik çəkdiyi bir çox mövzunu bu sayədə rahatlıqla anlaya biləcək hala gələr.

Daha əvvəl də ifadə edildiyi kimi ölüm, cənnət, cəhənnəm, axirət, ölçü dəyişdirmə kimi mövzular aydın olmuş və "Allah haradadır?", "Allahdan əvvəl nə vardı?", "Allahı kim yaratdı?", "qəbir həyatı nə qədər sürəcək?", "cənnət və cəhənnəm haradadır?", "cənnət və cəhənnəm bu an varmı?" və bunlar kimi əhəmiyyətli suallar beləcə asanca cavablanılmış olar. Və Allahın bütün bir kainatı necə bir sistemlə yoxdan var etdiyi qavranılmış olar.

Hətta belə ki, bu sirr sayəsində **"nə vaxt"** və **"harada" kimi suallar da mənasız hala gələr.** Çünki ortada nə zaman, nə də məkan qalmaz. Məkansızlıq qavrandığı təqdirdə cənnət, cəhənnəm, dünya hamısının əslində eyni yerdə olduğu da aydın olar. Zamansızlıq qavrandığı təqdirdə isə hər şeyin tək bir anda olduğu fərq edilər; heç bir şey üçün gözlənilməz, zaman keçməz, hər şey onsuz da olub, bitmişdir.

Bu sirrin qavranmasıyla birlikdə, dünya inanan insan üçün cənnətə bənzəməyə başlayar. İnsanı sıxan hər növ maddi narahatlıq, sıxıntı və qorxu itər. İnsan, bütün kainatın tək bir Hakiminin olduğunu, Onun bütün maddi dünyanı dilədiyi kimi dəyişdirdiyini və etməsi lazım olan tək şeyin Ona yönəlmək olduğunu qavrayar. Artıq o, Allaha təslim olmuşdur.

Bu sirri qavramaq, dünyanın ən böyük qazancıdır.

Bu sirrlə birlikdə yenə Quranda bəhs edilən çox əhəmiyyətli bir həqiqət daha aydın olar: Daha əvvəl də bəhs etdiyimiz, Allahın insana **"şah damarından**

**daha yaxın"** (Qaf surəsi, 16) olduğu həqiqəti… Bilindiyi kimi şah damarı insanın içindədir. İnsana öz içindən daha yaxın bir məsafə ola bilməz. Bu vəziyyət məkansızlıq həqiqəti ilə asanca açıqlana bilər. Görüldüyü kimi bu ayə də, bu sirrlə birlikdə çox daha yaxşı aydın olmaqdadır.

Əsl həqiqət budur. Bilinməlidir ki, heç bir insan üçün Allahdan başqa dost və köməkçi yoxdur. **Allahdan başqa heç bir şey yoxdur**; özünə sığınılacaq, kömək istənəcək, qarşılıq gözləniləcək tək mütləq varlıq Odur...

Və hər hara dönsək, Allahın üzü oradır…

**Onlar: "Sən paksan, müqəddəssən! (Bütün eyib və nöqsanlardan kənarsan!) Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən", - dedilər.**
**(Bəqərə surəsi, 32)**

# ƏDƏBİYYAT


1) *Materialist Fəlsəfə Lüğəti,* İstanbul: İctimai Nəşrlər, 4-cü nəşr, səh. 326
2) Georges Politzer, *Fəlsəfənin Başlanğıc Qanunları,* İstanbul: İctimai Nəşrlər, 1989, səh. 84
3) S. Jaki, *Cosmos and Creator,* Chicago: Regnery Gateway, 1980, səh. 54
4) Stephen Hawking, *Kainatı Qucaqlayan Qarışqa,* Alkım Nəşrləri, 1993, səh. 62-63
5) Corc O. Abel, *Exploration of The Universe,* Holt Rinehart and Winston, 1975, səh. 665-667
6) Henry Margenau, Roy Abraham Vargesse, *Cosmos, Bios, Theos,* La Salle IL: Open Court Publishing, 1992, səh. 241
7) Stephen Hawking, *Kainatı Qucaqlayan Qarışqa,* Alkım Nəşriyyat, 1992, səh. 143
8) W. R. Bird. *The Origin of Species Revisited, Nashville:* Tomas Nelson, 1991, səh. 462
9) W. R. Bird. *The Origin of Species Revisited, Nashville:* Tomas Nelson, 1991, səh. 405-406
10) *Elm və Texnika,* No 201, səh. 16
11) Stephen Hawking, *A Brief History Of Time,* Bantam Press, London: 1988, səh. 121-125
12) Paul Davies, *God and the New Physics,* New York: Simon & Schuster, 1983, səh. 189
13) Hugh Ross, *The Creator and the Cosmos,* Colorado Springs, CO: Nav-Press, 1993, səh. 114-15
14) Frederick Vester, *Düşünmək, Öyrənmək, Unutmaq,* İstanbul: Arıtan Nəşriyyat, 1991, səh. 6
15) Corc Politzer, *Fəlsəfənin Başlanğıc Qanunları*, Çev: Enver Aytəkin, İstanbul: İctimai Nəşrləri, 1976, səh. 38-39, 44
16) 16 R. L. Gregory, *Eye and Brain: The Psychology of Seeing,* New York: Oxford University Press Inc., 1990, səh. 9
17) Lincoln Barnett, *Kainat və Eynşteyn,* Çev: Nail Bezel, Varlıq Nəşrləri, səh. 20
18) Orxan Hançerlioğlu, *Düşüncə Tarixi,* İstanbul: Remzi Nəşriyyat, 1987, səh. 447
19) "Treaties Concerning the Principles of Human Knowledge", 1710, *Works of Corc Berkeley,* cild. I, ed. A. Fraser, Oxford, 1871
20) Bertrand Russell, *Nisbiliyin Əlifbası,* Qürur Nəşrləri, 1974, səh. 161-162
21) R. L. Gregory, *Eye and Brain: The Psychology of Seeing,* Oxford University Press Inc. New York, 1990, səh. 9
22) Karl Pribram, David Bohm, Marilyn Ferguson, Fritjof Capra, *Holografik Kainat* I, Çev: Əli Çakıroğlu, İstanbul: Kuraldışı Nəşrləri, 1996, səh. 37
23) Corc Politzer, *Fəlsəfənin Başlanğıc Qanunları,* İstanbul: İctimai Nəşrlər, 1989, səh. 53.
24) Orxan Hançerlioğlu, *Düşüncə Tarixi,* İstanbul: Remzi Nəşriyyat, 6-ci nəşr, sentyabr 1995, səh. 261.
25) Corc Politzer, *Fəlsəfənin Başlanğıc Qanunları,* İstanbul: İctimai Nəşrlər, 1989, səh. 65.
26) Paul Davies, *Tanrı və Yeni Fizika,* Çev: Murad Əsaslı, İm Nəşr Dizayn, Həyat Kitabları-1, İstanbul 1995, səh. 180-181

27) Rennan Pekünlü, "Aldatmacanın Təkamülsüzlüyü", *Elm və Utopiya,* dekabr 1998
28) Alaattin Şenel, "Təkamül Aldatmacasımı?, Dövrün Aldatmacasımı?", *Elm və Utopiya,* dekabr 1998
29) İmam Rəbbani, *Hz. Məktubları,* Cild II, 357-ci Məktub, s. 163
30) Əbdülhakim Müdrik, "Mütləq Varlıq, Kölgə Varlıq və Yoxluq", Arafiyan Jurnalı, noyabr 1994
31) Tim Folger, "Buradan Sonsuzluğa", *Discover,* dekabr 2000, səh. 54
32) Tim Folger, "Buradan Sonsuzluğa", *Discover,* dekabr 2000, səh. 54
33) François Jacob, *Mümkünlərin Oyunu,* Kesit Nəşrləri, 1996, səh. 111
34) Lincoln Barnett, *Kainat və Eynşteyn,* Varlıq Nəşrləri, 1980, səh. 52-53
35) Lincoln Barnett, *Kainat və Eynşteyn,* Varlıq Nəşrləri, 1980, səh. 17
36) Lincoln Barnett, *Kainat və Eynşteyn,* Varlıq Nəşrləri, 1980, səh. 58
37) Paul Strathern, *Eynşteyn və Görəlilik Nəzəriyyəsi,* Gendaş Nəşrləri, 1997, səh. 57
38) Lincoln Barnett, *Kainat və Eynşteyn,* Varlıq Nəşrləri, 1980, səh. 17-18

# IV HİSSƏ

# Təkamül Yalanı

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı.

Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

**"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)**

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

# XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

**"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)***

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

**"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)***

# Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

**"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)***

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...”

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında: **“Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”**, – demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə “təkbaşına” və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

# Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

**"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)***

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın

ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

**"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)***

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

**“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)***

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

**“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, “The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)**

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir.

Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

**"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)***

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- **Australopithecus**
- **Homo habilis**
- **Homo erectus**
- **Homo sapiens**

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından

Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

**"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər".** ***(S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)***

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

**"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür".** ***(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)***

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı

növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.

100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz

bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün.

Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və

qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir.

Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

# Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

**"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)***

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız

maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar.

Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar".** ***(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)***

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən

böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)**

**Maddə və zaman, yoxdan necə yaradıldı?... Big Bang nəzəriyyəsi kainatın yaradılışı ilə əlaqədar hansı həqiqətləri göstərir?... Bizim üçün əsrlər sürən bir zaman kəsiyi, bir başqa ölçüdə necə tək bir "an" ola bilər?... Eynşteynin Nisbilik Nəzəriyyəsi ilə Quran ayələri arasındakı paralellik nədir?... Bu kitabda bütün bu sualların cavabları, zamanın və maddənin həqiqət xüsusiyyəti izah edilir.**

**XX əsr elminin tapıntılarıyla ortaya çıxan həqiqətlər, materialist fəlsəfənin iddialarını təməlindən çökdürür. Kosmos, maddə, zaman və tale(alın yazısı) haqqındakı həqiqətləri öyrənmək istəyirsinizsə, bu kitabı mütləq oxuyun...**

**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.